DÜNYA XALQLARININ NAĞILLARI

AFRİKA XALQLARININ NAĞILLARI

(Nyamanın quyusu)

Bakı – "Təknur" – 2013

Topladı və tərcümə etdi: **Səfiyev Natiq Yusif oğlu**
Redaktor: **İlyasova Güntəkin Natiq qızı**

Afrika xalqlarının nağılları.
Bakı "Təknur". 2013. 84 səh.

Afrika qitəsində çoxlu xalqlar yaşayır. Onların hər birinin özünəməxsus folkloru vardır. Bu kitabdakı dilimizə çevrilmiş nağıllar ibrətamiz, tərbiyəvi xarakter daşıması ilə hər kəsi özünə cəlb edir. Topluda 25 xalqın 40 nağılı toplanmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-445-26-5

© Afrika xalqlarının nağılları

NYAMANIN QUYUSU

(Aşanti nağılı)



Belə nəql edirlər ki, keçmiş zamanlarda quyruğu olmadığı üçün heyvanların qurbağanı görən gözləri yox idi. Qurbağa heyvanlardan incidi və göylər allahlı Nyamanın yanına gəldi ki, ondan quyruq istəsin. Göylər allahı qurbağanı diqqətlə dinləyib, dedi:

-Mənim bir quyum var, onun suyu heç vaxt qurumur. Bu quyu üçün mənə gözətçi lazımdır. Sən gözətçi olmağa razılıq versən, quyruq əldə edərsən.

Qurbağa razılıq verdi.

-Yaxşı, mən gözətçilik edərəm, ancaq mənə quyruq ver.

Nyama qurbağaya quyruq verdi və onu quyuya göndərdi:

-İşin qulpundan möhkəm yapış. Quyunu təmiz saxla, elə et ki, onun yanından keçənlər su yanğılarını, susuzluqlarını yatıra bilsinlər.

Qurbağa quyuya yollandı və orada yaşamağa başladı.

Lakin elə oldu ki, bu yerlərdə quraqlıq başladı. Yağışlar çoxdan yağmırdı, bütün quyular qurumuşdu. Yalnız Nyamanın quyusunda su vardı. Bu vaxt qurbağa tamam lovğalandı, təkəbbürlü və sadəcə olaraq səfeh oldu.

Heç yanda su olmadığından heyvanlar Nyamanın yanına gəldilər və ondan su istədilər. O, bütün heyvanları suyu heç vaxt qurumayan öz quyusuna göndərdi.

Bura ilk gələn kəl oldu. Kəlin quyu tərəfə gəldiyini görüb, qurbağa quruldadı:

-Nyama quyusunun suyunu kim bulandırır?

-Bu mənəm, kəldir,- deyə kəl cavab verdi.

Qurbağa ona belə dedi:

-Rədd ol, burdan! Burada sənin üçün su yoxdur! Quyu quruyub.

Kəl su içməmiş çıxıb getdi. Sonra quyuya qoyun yaxınlaşdı, qurbağa yenə quruldadı:

-Kimdir Nyama quyusunun suyunu bulandırmağa gəlir?

Qoyun cavab verdi:

-Bu mənəm, qoyundur.

Qurbağa isə qışqırdı:

-Rədd ol, burdan! Sənin üçün burada su yoxdur! Quyu quruyub.

Nəhayət bütün heyvanların səbri tükəndi. Bu vaxt

Nyamaya şayiə çatdı ki, onun təbəələri susuzluqdan əziyyət çəkir. O, özü quyuya yollandı ki, görsün orada nə baş verir.

Nyamanın ayaq səsini eşidən qurbağa quruldadı:

- Kimdir Nyama quyusunun suyunu bulandırmağa gəlir?

Nyama ciddiyyətlə dedi:

-Bu mənəm, Nyama!

Lakin qurbağa vərdiş etdiyi sözləri təkrar etdi:

-Rədd ol, burdan! Burada su yoxdur! Quyu quruyub.

Bu sözləri eşidən Nyama dəhşətli tərzdə qəzəbləndi. O, qurbağanın quyruğunu qopartdı, ozünü isə qovdu. Qurbağa quyruqsuz qaldı.

İndi o hər yerdə su axtarır, suda yaşayır - Nyamanın quyusuna gözətçilik etdiyi gözəl günləri daima yada salır.

Nyama qurbağanın pis əməlini həmişə onun yadına salır. Qurbağalar quyruqlu doğulurlar, lakin onlar biraz böyüyən kimi Nyama onların quyruqlarını yox edir.

İKİYÜZLÜ NQİ

(Beti-bulu nağılı)

Nqi-mbaba, yarasa bütün dişləri olan cəhənglə və iki qanadla dünyaya gəlib. Meşədə xeyli müddət baş çıxara bilmirdilər ki, Nqi-mbaba nədir: heyvandır, yoxsa quş? Hiylıgər Nqi isə bundan istifadə edirdi. Quşlar ziyarət təşkil edəndə, Nqi hamıdan əvvəl burada olardı, axı onun quş qanadları var. Heyvanlar şikarı bölmək istəyəndə Nqi öz payını götürmək üçün tələsərdi, axı onun cəhəngi dişlidir.

Yaşayış üçün heç nə olmayanda Nqi nə burda olardı, nə də orada.

Meşə xalqı arasında ancaq Nqinin özünü qəribə aparmasından söhbət gedirdi. Lakin hər şeyin sonu var. Günlərin birində dəvəquşu Enqudu-quşların ən ali rəh-

bəri elan etdi ki, öz xalqını bir yerə toplayır ki, vacib bir məsələni həll etsin. Çaparlar Nqi-mbabanı da yığıncaqa dəvət etdilər. Lakin o quşların ümumi toplanışına gəlmədi.

- Mən sizinlə danışmaq belə istəmirəm. Sizin ancaq dimdiyiniz var, mən isə cəhəngə malikəm. Baxın mənim necə gözəl, ağ və iti dişlərim var! Mənim sizinlə ümumi heç nəyim yoxdur!

Az sonra şir Engbeme-bütün heyvanların rəhbəri öz xalqını ümumi toplanışa dəvət etdi və bildirdi ki, vacib məsələ həll olunmalıdır. Çapar Nqi-mbabanı da bura çağırdı. Lakin o bura gəlməyi ağlına belə gətirmədi.

- Siz kimsiniz ki, mən sizinlə söhbət edim. Bizim sizinlə ümumi heç nəyimiz yoxdur, - deyə o bildirdi. Siz uçmağı bacarmırsınız, 4 pəncənizlə qaçırsınız, hərəkət edirsiniz. Mənim isə, görün necə gözəl qanadlarım var!

Onda dəvəquşu Enqudu Nqi-mbabanı quş tayfasından xaric etdi. Şir Enqbeme isə onu heyvanlar ailəsindən qovdu.

Bu hadisədən bir az keçmiş quşlar bayram keçirdilər. Hər bir quşu nəyəsə qonaq etdilər. Nqi bayrama ilk gələnlərdən biri oldu.

Axı mənim qəribə qanadlarım var, lap əsl quşlarda olduğu kimidir! – deyə o mühakimə yürütdü.

Dəvəquşu Enqudu ona buyurdu ki ağzını açsın.

Buna cavab olaraq, insafla desək, Nqi-mbaba ağ dişlərinin cərgələrini göstərdi.

- Bir mənə bax, - deyə dəvəquşu Enqudu bildirdi. – Məgər mənim dimdiyimdə dişlər varmı? Get o məxluqların yanına ki, onların cəhəngləri dişlərlə doludur. Sən

bizim tayfadan deyilsən!

Beləliklə Nqi-mbaba heç nəsiz evinə qayıtdı.

Bir neçə gündən sonra şir Engbeme heyvanların bayramını elan etdi. Burada hamını ləzzətli təamlar gözləyirdi.

Yenə də Nqi-mbaba bura ilk gələnlərdən oldu. Lakin şir Enqbeme onu təəccüblə qarşıladı. Şir hamını öz ailələri ilə oturtdu. Lakin yarasa üçün heyvanların arasında yer tapılmadı: onun nə buynuzları, nə də möhkəm dırnaqları vardı. Nqi-mbabada heyvanların bir-birlərini tanımaq üçün əlamətlər də yox idi.

Nahaq yerə o hamıya dişlərini göstərirdi. Şir-Engbeme qəzəblə əmr etdi ki, o buradan rədd olub getsin.

Beləliklə Nqi-mbaba münzəvi oldu – o dişli olsa da heyvan, qanadları olsa da quş sayılmadı. Onu nə heyvanlar, nə də quşlar öz qəbilələrinə qəbul etdilər. O vaxtdan Nqi-mbabanı ikiyüzlü, riyakar adlandırırlar.

NİYƏ DONUZLARIN BUYNUZLARI YOXDUR

(Baule nağılı)



Donuz Bemenin xalası müdrik tısbağa ruhların yanına yollandı ki, heyvanlar üçün buynuz əldə etsin.

Evə qayıdan tısbağa səhər tezdən həyətdə çağırış təbilini çaldırdı.

Evlərdə heç kəs qalmadı. Bütün heyvanlar tısbağanın yanına axışdılar. Kiçikdən böyüyə balaca siçandan tutmuş nəhəng filə kimi hamı burada idi. Kövşəməyi bacaranlar bərkdən marçıldadır , dırnaqları olanlar yorulmadan yeri qazır, bundan başqa dişləri ilə şikarını didib

parçalayanlar, düşməni dırnaqları ilə cırmaqlayanlar, quyruqları ilə öyünənlər buraya toplaşmışdılar.

Tısbağa ləyaqətlə heyvanların qarşısına çıxdı, onun qoltuğunun altında qiymətli kisə vardı. O tamam əhəngə və kömürə bulaşmış, çanağının hər axçası rənglənmişdi. O saat görünürdü ki, müqəddəs ruhlar onu öz sənətlərinə qoşublar. Heyvanlar hörmət və ehtiramla tısbağaya baxırdılar.

-Qardaşlarım, - deyə tısbağa heyvanlara müraciət etdi. – Məgər siz görmürsünüz insanlar meşədə yaşayanları üstələyirlər. Nəyə görə, sizdən soruşuram? Ona görə ki, adamların nizələri, ox və kamanları, tüfəng və bıçaqları var. Məgər siz insanlardan dırnaqlarınızla, dişlərinizlə, pəncə və ayaqlarınızla qorunacaqsınız? Məgər biz müdrik olduğumuz halda adamlara imkan verəcəyik ki, bizi məhv eləsinlər? Mən sizin üçün buynuz əldə etmişəm və indi onları paylayacağam. Bilin ki, öz buynuzunuzu tısbağadan əmələ gələnlərə yönəldəni dəhşətli ölüm gözləyir!

Bundan sonra tısbağa əmr etdi ki, heyvanlar ailələrlə cərgəyə düzülsünlər: o yerə buynuzları töküb, təklif etdi:

-Qoy hər bir heyvan öz zövqünə uyğun buynuz seçsin.

Bura ilk yaxınlaşan fil oldu. O iri dişləri, xilləri yoxladı. Onlar indi də onu bəzəyir.

Sonra bəbir, şir və başqa yallılar bura yaxınlaşdılar. Onlar həqarətlə fınxırdılar.

-Buynuzlar həddən ziyadə ağırdırlar. Düşməndən qorunmaq üçün bizim pəncəmiz, dırnaqlarımız , köpək

dişlərimiz bəs edər.

Qəzal Soo öz ailəsi ilə bura yaxınlaşdı. Onların hər biri öz zövqünə uyğun buynuz seçdi və onu başına yerləşdirdi.

Qəzallar Okpeni və Odzoe tısbağadan xahiş etdilər ki, onlara iti buynuzlar versin. Odzoe özünə balaca, lakin çox iti və şiş buynuzlar götürdü. Hər hansı çətin işdən söhbət düşəndə biz deyirik: "Bir qəzal Odzoenin buynuzlarından yapış!"

Donuz Beme isə tələsmirdi, o sakitcə manioki çölündə gəzişirdi.

-Hər halda mənə də buynuz çatar, axı onları paylayan mənim xalamdır.

Müəyyən vaxt keçəndən sonra donuz tısbağanın evinə yaxınlaşdı. Ona məlum oldu ki, bütün buynuzlar paylanıb qurtarıb.

Donuz Beme inildədi, tısbağa isə fikrə daldı.

-Qızım, necə oldu ki, biz səni unutduq!

O vaxtdan bizim diyarda deyirlər: "O şəxslər ki, yanımızdadır,əsasən onlar unudulur".

-Mən isə fikirləşirdim ki, əgər onları sən paylayırsansa, mənə də buynuz çatar, - deyə donuz Beme narazı halda donquldadı.

Nə etmək olar. Tısbağa iri dişi donuzun sifətinə yerləşdirdi. O vaxtdan donuz deyinərək buynuz tapmaq axtarışında torpağı eşir.

İNSANLAR NECƏ OD ƏLDƏ ETDİLƏR

(Çaqqa nağılı)

Əvvəllər od olmadığı üçün insanlar banan və əti əntər kimi çiy yəməyə məcbur idilər. Günlərin birində həmişəki kimi mal-qaranı örüşə apararkən uşaqlar özləri ilə çiy yəmək də götürdülər. Onlar orada özləri üçün ox-kaman düzəldib,oynamağa başladılar. Oğlanlardan biri öz oxunu kixombo ağacının yanına qoydu və onu fırlatmağa başladı. Ox qızdı və oğlan yoldaşlarına qışqırdı:

- Kim buna toxunmaq istəyir?

Uşaqlar yaxınlaşdılar və oğlan qızmış oxu onlara toxundurdu. İstini hiss edib oğlanların hərəsi bir tərəfə

qaçdı. Həmin uşaq isə oxu daha da möhkəm fırlatmağa başladı, istədi ki,o istiləsin. Bundan sonra o oxu oğlanlara tərəf uzadırdı. Sonra uşaqlar həmin oğlana kömək etdilər:

- Gəlin onu daha çox qızdıraq.

Onlar yenə də oxu fırlatmağa başladılar. Bu zaman tüstü göründü. Onun altında olan ot yavaş-yavaş yandı, uşaqlar daha çox ot gətirdilər ki, tüstü ətrafı bürüsün və onlar şənlənsinlər. Elə bu vaxt göyə alov püskürdü. O işıqlaşır, otları və kolları məhv erərək yandırır və həmişə də çırtıldayırdı, sanki tufan baş vermişdi.

Hər yerdən bura adamlar axışıb gəldilər. Onlar alova baxıb dedilər:

- Bizə bu möcüzəni göndərən görən hardadır?

Sonra onlar uşaqları axtarıb tapdılar və qışqırdılar:

- Siz, bu möcüzəni hardan tapdınız?

Böyüklər hirslənmiş, uşaqlar isə qorxmuşdular. Lakin onlar hər halda öz ağaclarını göstərdilər və onları fırlatmağa başladılar. Yenə də alov püskürdü. Böyüklər qışqırdılar:

- Siz nə etdiniz? Sizin yaratdığınız bu möcüzə bizim bütün otumuzu və ağaclarımızı məhv edə bilər.

Odun xeyirxah işlərə xidmət etdiyini böyüklər yanğın yerində uşaqların gətirdikləri azuqəni görəndə öyrəndilər. Uşaqlar dilləndilər:

- Bura gəlin, görün, Vovo bizim yeməklərimizi nə eyləyib. Onlar alovu “Vovo” adlandırdılar, belə ki, o yananda vo-vo-vo kimi uğuldayırdı.

Lakin acımış uşaqlar bananı yeyəndə hiss etdilər ki, onlar həm yumşaq olmuş, həm də şirinləşmişlər.

Uşaqlar yenə də bir balaca tonqal qaladılar və onun üzərinə bananları qoydular. Yenə də gördülər ki bananlar daha da ləzzətli olublar.

Bundan sonra adamların hamısı vovonu evlərinə apardılar və öz yeməklərini onun üzərində bişirməyə başladılar.

Günlərin birində bu yaşayış yerinə bir adam gəldi. Və onların yeməklərindən yedi. O, soruşdu:

- Siz bunu necə hazırlayırsınız?

Onda adamlar ona Vovodan söhbət açdılar. Yad adam evinə gəlib keçisini götürdü ki, onu oda dəyişsin. O, yolda başqa bir adama rast gəldi və həmin adam soruşdu:

- Keçi ilə sən hara gedirsən?

- Mən onu Vovoya dəyişəcəyəm.

Beləliklə, bura çox adam gəldi. Onlar buradan od alıb, dünyanın hər yerinə apardılar. Adamlar ağac parçalarını bir-birinə sürtməklə od əldə etməyi öyrəndilər. Yumşaq ağacı kiponboro, o birisini isə ovito adlandırdılar. Bu adamlar iki odun parçasını komanın yanında hazır vəziyyətdə saxlayır və deyirdilər:

- Bu, hər ehtimala qarşı qoyulur. Əgər uzun gecədə hamı yatmış olsa, qonşunu narahat etməmək üçün özümüz od əldə etməliyik.

SİÇANLAR VƏ PİŞİKLƏR

(Dabida nağılı)

Keçmiş zamanlarda siçanlar pişiklərdən çox qorxar və gecə-gündüz öz yuvalarından çıxmazdılar ki, düşmənlərinin gözünə görünməsinlər. Axı belə aclıq hamının məhvinə gətirib çıxara bilərdi.

Bir gün bütün siçanlar məşvərətə toplaşdılar. Əsas məsələ pişikdən yaxa qurtarmaq idi. Hamı müzakirədə iştirak edirdi.

Bu vaxt siçan balası dedi:

- Mən yaxşı bir şey düçünüb tapmışam. Fikrimcə pişiyin boynuna zınqrov asmaq lazımdır. Onda biz onun gəlişindən xəbərdar olarıq.

Siçanlar sevindilər və bala siçanı tərifl ədilər. Lakin qoca siçan yerindən qalxaraq dedi:

- Həqiqətən yaxşı düşünüb tapmısınız. Lakin deyin görək, pişiyin boynuna zınqırovu bağlayan cəsarətli, ürəkli siçan tapılacaqmı?

MEYMUN NİYƏ AĞACDA YAŞAYIR?

(Eve nağılı)

Günlərin bir günü meşə pişiyi ova çıxdı. Lakin onun əlinə heç nə keçmədi. O yorularaq yerə uzandı ki, istirahət etsin. Lakin birələr ona rahatlıq vermədilər. Bu vaxt pişik gördü ki, yaxından meymun keçir.

- Meymun, mənim birələrimi təmizlə - deyə vəhşi pişik onu səslədi. Meymun razılaşdı və pişiyin bədənindən birələri axtarmağa başladı. Xoşallanan pişik yuxuya getdi. Bunu görən meymun pişiyin quyruğunu ağaca bağladı və özü isə qaçdı. Pişik yuxudan oyandı. O istədi ki, dursun öz işlərinin dalınca getsin, lakin yerindən tərpənə bilmədi. Axı quyruq ağaca sarınmışdı! Pişik çox

əlləşdi ki, burdan xilas olsun, lakin bir şey çıxmadı.

Bu vaxt pişiyin yanından bir ilbiz keçirdi. Onu görən pişik sevindi.

- İlbiz, mənim sarğımı aç!

- Əgər səni xilas etsəm,məni öldürməzsən ki? – deyə ilbiz soruşdu.

- Yox, yox, – deyə pişik söz verdi. - Sənə pisliyim dəyməz.

İlbiz pişiyi xilas etdi.

Pişik evə gəldi və yaxınlıqda yaşayan heyvanlara dedi:

- Beş gündən sonra hamıya deyin ki, mən ölmüşəm və siz məni dəfn etməyə hazırlaşırsınız.

Heyvanlar heç nə başa düşmədilər, lakin pişiyin xahişini yerinə yetirməyə razılıq verdilər.

Budur beş gün keçdi. Pişik yerdə uzandı, ölü kimi ayaqlarını uzatdı.

Heyvanlar gəlib gördülər ki,pişik ölüdür. Heyvanların arasında meymun da vardı.

Meymun yaxına gəldi ki, pişiklə vidalaşsın. Birdən pişik yerindən qalxdı və meymunun üstünə atıldı.

Meymun götürüldü! O ağaca dırmaşmağı ilə pişiyin əlindən xilas oldu. O vaxtdan meymun ağacda yaşayır və yerdə gəzməyi xoslamır. Bu ona görədir ki, o meşə pişiyindən çox qorxur.

SAXARANIN YARANMASI

(Əlcəzair nağılı)

Əlcəzairin cənubundakı dağ kəndində bir zahid yaşayırdı. Möminliyinə və çox xeyirxahlığına görə hamı onu sevirdi. O, bütün günü hətta gecə də ay işığında ibadət edərdi. Zahid kəhraba təsbehini çevirərək xeyirxahlıq və tamahkarlıq haqqında düşünərdi. Bu kənddə yaşayanların əksəriyyəti məsləhət almaq üçün bu müdrik insanın yanına gələrdi.

Bir gün müqəddəs adəti üzrə xalçanın üstündə oturub ibadət edərkən, onun yanına silahlıların müşayiəti ilə dövlətli bir cənab gəldi. O, bura ona görə gəlmişdi ki, zahiddən soruşsun: "Öz geniş və bəhrəli torpaqlarını, onlara tez-tez hücum edən düşmənlərdən necə qorusun?" Müdrik zahid onu diqqətlə dinləyib, söz verdi ki, kömək əlini ondan əsirgəməyəcək. Ağsaqqal dağdan

enərək, vadiyə gəldi. Burada çoxlu ağaclar, güllər, çiçəklər bitmişdi, bulaqlar çağlayır, quşlar cəh-cəh vururdu. Müqəddəs buranın camaatından xahiş etdi ki, düşmənlərin hücumuna məruz qalan bu adama kömək göstərsinlər. Lakin buranın sakinləri müqəddəs qocanın xahişinə əhəmiyyət vermədilər.Onları təhlükə gözləmirdi, bu yerlərdə sülh və əmin-amanlıq hökm sürürdü.

Kömək etməkdən imtina edən bu yerin sakinlərindən inciyən bu cənab düşmənin çox saylı ordusuna qarşı mübarizəyə qalxdı. Yağı düşmənlər onu darmadağın etdilər. Həmin cənab isə döyüşlərin birində qəhrəmancasına həlak oldu.

Qoca zahidin kini sərhəd tanımırdı. O, əl ağacı ilə bu bərəkətli diyarı tərk etdi, kömək diləyən adamın əlindən tutmadıqlarına görə bu xalqı lənətlədi. Zahid onların faydalı, məhsuldar torpaqlarına bədbəxtlik göndərdi. Bu yerlər get-gedə ölü və barsız vəziyyətə düşdü. Çaylar qurudu, ağac və kollarda, bağlarda güllər, çiçəklər soldu. Burada quru tikanlı otlardan başqa heçnə qalmadı, onları da külək uzaqlara apardı.

O vaxtdan burada nə ağac, nə yaşıllıq, nə su, nə də təravət qaldı. Bütün diyar lütləşdi, səhraya çevrildi və onu “Saxara” adlandırdılar.

Lakin Tanrının bu boşalmış torpağa yazığı gəldi. O, öz nəfəsi ilə bura qızılgül çiçəkləri göndərdi. (Saxara-ərəbcə böyük səhra deməkdir.) Burada vahələr yaratdı, yalnız bu yerlərdə təmiz su axır və səhraların kasıb sakinlərinə lazım olan sərinliyi bəxş edir.

BACARIQLI OĞRULAR

(Əlcəzair nağılı)

Bir vaxtlar iki oğru yaşayırdı. Onlar bir-birlərinə sədaqət andı içmişdilər və şərtləşmişdilər ki, onlardan birini tutsalar o biri onu ələ verməyəcəkdir. Bu dostlar ustalıqla oğurluq edirdilər. Bu işdə onların fəndlərinin misli-bərabəri yox idi. Onlar dəvə, inək və at oğurlayır, lakin ələ keçmirdilər. Oğruların ailələri çox idi və onlar qonşuluqda yaşayırdılar.

Bir gün oğrular qərarlaşdırdılar ki, cins atı oğurlasınlar, lakin onlar əvvəl atın yiyəsinə göz qoymağa başladılar. Onlar gördülər ki, ağa öz dayanacağına qayıtdı, atdan düşdü və yüyəndən tutub çadırların birinə apardı. Atın yiyəsi gedən kimi oğrular səssiz, ilan kimi çadıra daxil oldular. Onlardan biri tez atın üstünə sıçradı. O biri isə yüyəndən tutub onu bayıra çıxartdı. Lakin at çox ağıllı idi. Kənara çıxan kimi o kişnədi. Atın kişnəməsini eşidən ağa nökərlərini göndərdi ki, görsün ata nə olub. Nökərlər gördülər ki, iki yad adam sahibin atını qaçırmaq istəyir. Onlar irəliyə atıldılar ki, oğruları tutsunlar, lakin atın üstündəki, qamçı ilə atı vurdu və burdan götürüldü. O, birini isə nökərlər mühasirəyə alıb tutdular.

Oğrunu qazının yanına gətirdilər, onu dindirdilər, döydülər, döydülər. Başqası olsaydı çoxdan hər şeyi boynuna alardı, günahkar olduğunu bildirərdi, lakin o, içdiyi anda sədaqətli olduğunu nümayiş etdirdi, yoldaşını ələ vermədi. Bundan əlavə o, ümumiyyətlə, hər şeyi dandı, ancaq təkrar-təkrar bildirdi ki, o, atı qaçırmaq fikrində

olmayıb, bir də onun heç bir dostu yoxdur və heç vaxt da olmayıb. Lakin oğru izah edə bilmirdi ki, niyə çadırın yanına gəlib və onun yanında nə edirmiş. Oğru hər cür hiylə işlədirdi, təmizə çıxmaq üçün müxtəlif fikirlər söyləyirdi. Lakin nökərlər sözlərinin üstündə duraraq qazını inandırdılar ki, at oğurlananda bu adam yüyəndən tutmuşdu.

Oğrunu həbsxanaya saldılar. Günlər bir-birini əvəz edir. Oğru isə həbsdə oturur. Dostu isə bu vaxt atı, yəhəri və yüyəni satıb, əldə edilən məbləğin yarısını həbsdə olanın ailəsinə verir.

Xeyli vaxt keçəndən sonra bu oğurluq haqqında söhbətlər kəsiləndə azadlıqda olan oğru günlərin bir günü həbsxanaya, dostu ilə görüşə gəlir. Həbsxana gözətçilərinin yanında dostunu görərək, o, elə başa düşür ki, dostu işarə edir ki, mən onlara heç nə deməmişəm, sən də dilini farağat qoy. Onda azadlıqda olan dostu qışqırır:

-Dostum mən istəyirəm biləsən: dördlük qırxlıq oldu, dart və burax-onluq, qaldır və qoy iyirmi oldu, otuz beş sahibəyə çatdı.

Həbsdə olan oğruya aydın oldu ki, at qırx dinara, yüyən on, yəhər- iyirmi dinara satılıb. Əldə edilən pulun yarısı arvadına verilib. Gözətçilər deyilənlərdən heç nə başa düşmədilər.

Gör bu iki oğru necə fəndgir idi.

SƏHRADA YAŞAYAN GÖYƏRÇİNLƏR

(Əlcəzair nağılı)



Səhrada göyərçinlər dəstəsi yaşayırdı. Bütün günü onlar yem axtarışında olar, gecələr isə yatmaq üçün bir yerə toplaşardılar. Bir gün axşam yatmazdan əvvəl söhbət zamanı göyərçinlərdən biri belə bir fikir söylədi:

-Qardaşlar, gəlin dəstə ilə Hicaza gedək – Biz həm həcc ziyarətində olarıq, həm də başqa ölkələrdə yaşayan qohumlarımızla görüşərik.

Bu təklif bütün göyərçinlərin xoşuna gəldi və onlar yola hazırlaşmağa başladılar. Onların gedəcəyi yol o qədər də yaxın deyildi, bu səyahətdə həmçinin tanış olmayan yerlərdən keçmək lazım idi. Bələdçisiz bu yolu getmək böyük çətinliklər törədə bilərdi. Onlar çox fikirləşdilər: "Görəsən bələdçilik işinə kimi dəvət etsinlər." Nəhayət seçim qarğanın üzərinə düşdü. O yaxınlıqda

yaşayır və səyahət etməyi xoşlayırdı. Hicazda isə o bir neçə dəfə olmuşdu. Qarğadan yaxşı bələdçi hardan tapmaq olardı?

Qarğa böyük sevinclə göyərçinlərin təklifini qəbul etdi.

-Mən sizi elə səhra yolları ilə aparacağam ki, - deyə qarğa söz verdi. – Siz heç bir çətinlik hiss etməyəcəksiniz. Mən yolda olan quyuların hətta saylarını da bilirəm.

Qarğanın rəhbərliyi ilə göyərçinlər yola düzəldilər. Lakin yazıqlar bilmirdilər ki, onların bələdçisi olan qarğa hansı pis niyyətlərin sahibidir. Qarğa quşları səhranın lap dərinliyinə gətirdi. Burada bir damcı da su tapmaq mümkün deyildi. Yol boyu göyərçinlər susuzluqdan gəbərmiş it cəsədlərinə rast gəlirdilər.

Bu yürüşdə quşların əksəriyyəti məhv oldu, möcüzə nəticəsində sağ qalanlar isə çox pis halda, xəstə vəziyyətdə evə qayıtdılar.

Heç nahaq yerə deyilməyib: əgər qarğa yol göstərməyi boynuna götürübsə, o bələdçilik etdiklərini it cəsədlərinin yanına gətirib çıxaracaq.

KAFTAR NECƏ BAZARA GETMİŞDİ?

(Fulbe nağılı)

Dovşan bazara gedib özünə yemək üçün ərzaq – badımcan, yerfındığı şərbəti aldı. O meşəyə qayıtdıqda kafdara rast gəldi. Dovşan şərbətdən bir parça kəsib kaftara verdi ki, onun dadına baxsın.

- O! Gör necə də ləzzətlidir. Bunu necə əldə etmək olar? – deyə kaftar soruşdu.

Dovşan cavab verərək dedi:

- Bazardan! Ürəyin, xətrin nə istəyir, bazarda var.
- Tez ol, gedək bazara! – deyə kaftar çağırış elədi.
- Yox! – deyə Dovşan başını buladı.
- Bazar həftədə bir dəfə olur.
- Gələn dəfə mən mütləq gedəcəyəm, - deyə kaftar öz qərarını bildirdi.

Kaftar bazar gününü səbirsizliklə gözlədi və ora yollandı. Bazara girən kimi, o, burada ətlə dolu piştaxtalar gördü. Ətrafda mal və qoyun ayaqları asılmışdı. Kaftar tez ora atıldı və buddan yapışdı. Qəssab isə irəli atılıb ona bir möhkəm şapalaq endirdi. Kaftar budu atdı.

- Buna bazar deyərlər?! Dovşan bunları başqa cürə təsvir etmişdi. Kaftar meşəyə qayıtdı. Elə bu vaxt onun qarşısına dovşan çıxdı.

- Ay dovşan, dediyin bazar zor idi! Mən bazara girən kimi, şapalaq aldım.

- Bu, sən deyən kimi deyil, - deyə dovşan gülümsündü. – Sən bazara girib, özgə malını çırpışdırmaq istəyəndə şapalaq almısan.

- Bunu sən hardan bildin? - deyə Kaftar təəccübləndi! Sən məğər orada idin?

- Yox, orada deyildim, - deyə Dovşan cavab verdi. Axı mən səni yaxşı tanıyıram.

DOVŞAN KAFTARI NECƏ ALDATDI

(Xausa nağılı)

Günlərin birində dovşan və kaftar ov etməyə yollandılar.Dovşan çoxlu ov quşu əldə etdi, kaftar isə onları öz torbasına atırdı. Nəhayət, dovşan antilop da öldürdü, kaftar onu da özünə götürdü. Dovşan əsəbiləşdi, kaftarı burada qoyub, evə qaçdı.

Burada o özünü qırmızı və ağ palçıqla boyadı və hündür qarışqa damına dırmaşıb orada oturdu.

Tezliklə kaftar yolda göründü. O evə qayıdırdı. Kaftar qarışqa yuvasına yaxınlaşdı və gördü ki, yuxarıda nəsə ağarır. O qorxdu və dedi:

- Qarışqa yuvasında oturan, məni burax, çıxım gedim. Ovladığımın hamısını mən sənə verərəm. – O kisədə olan ov quşlarını çıxardı.

- Mən gedə bilərəmmi?

Dovşan isə cavabında dedi:

- Umm! Umm!

Kaftar o biri ov quşlarını da kisədən çıxartdı və soruşdu:

- Ey qarışqa yuvasında oturan, olarmı mən çıxım gedim?

Dovşan yenə də cavab verdi:

- Umm! Umm!

Onda kaftar kisədən antilopu da çıxarmalı oldu.

Bu dəfə dovşan kaftara icazə verdi ki, getsin. Kaftar boş kisə ilə evə getdi, dovşan isə yuyunub bütün şikarları götürdü və evinə yollandı.

ÇAR QVARİ VƏ CADUGƏR

(Xausa nağılı)

Bir gün çar Qvari saray əyanlarını ətrafına toplayıb, öyünməyə başladı.

-Əgər cadugər bura təşrif buyursa və öz bacarığını göstərsə, mən ona böyük ənam verib, sonra da onu edam etdirəcəyəm.

-Yaxşı düşünülmüşdür! – deyə əyanlar bir ağızdan dilləndilər.

Bu xəbər bütün Xausa torpağına yayıldı və tezliklə gedib məşhur cadugərə çatdı.

Cadugər bütün ev adamları ilə birgə çar Qvarinin sarayına yollandı. Onlar şəhər darvazasına yaxınlaşdılar. Nökər təbil çalıb, belə oxudu:

-Budur, cinlər hökmdarı kisəsində möcüzələrlə gəlib.

Cadugər qaşqaralana kimi öz ustalığını nümayiş etdirdi.

-Sabah yenə gəl!- deyə çar Qvari əmr etdi.

Ertəsi gün səhər yenə də bütün əyanlar, saray adamları bir yerə toplaşdılar. Çar Qvari taxta əyləşdi və tamaşa davam etdi. Cadugər möcüzələr göstərir, təbilçi isə, öz alətinə zərbə vurub, oxuyurdu:

-Budur, cinlər hökmdarı, kisəsində möcüzələrlə gəlib!

Bu vaxt çar cadugərə bir-birindən gözəl və qiymətli hədiyyələr bağışlayırdı.

Nəhayət çar Qvari buyurdu:

-Mən rəhmətlik anamı görmək istəyirəm.

-Tasda su gətirin!- deyə cadugər əlini-əlinə möhkəm vurdu.

Su gətiriləndən sonra o, tasa ədviyyə tökdü və bu vaxt çarın anası göründü. Hamı gördü ki, ana stulda oturub.

Çar Qvari yaxınlaşıb rəhmətlik anasını görüb, dedi:

-Onu kənara çıxar!

Cadugər cavab verdi:

-Qoy çar tamaşa qurtarana kimi gözləsin.

Əslinə qalsa o, həyəcanla fikirləşirdi ki, şəhərdən necə qaçmaq olar. Axı cadugar bilirdi ki, onun möcüzələri qurtarana kimi çar onu öldürəcək.

Cadugər nökərini yanına çağırdı və buyurdu ki, qiymətli hədiyyələri çarın anasına aparsın və sonra tez də şəhərdən çıxsın.

O, tamaşaçılara üzünü tutaraq əlavə etdi:

-Tasın ətrafında dövrə vursanız, görünməz olacaqsınız.

Nökərlər və əyanlar tasın ətrafında yox oldular. Əvvəlki kimi burada ancaq təbilçi oynayır və oxuyurdu:

-Budur, cinlər hökmdarı, kisəsində möcüzələrlə gəlib!

Bir azdan cadugər onu da çarın anasına hədiyyə aparmağa yolladı. Nökərdə öz sahibinin dediyini yerinə yetirib, tasın ətrafında dövrə vurub yox oldu.

Onda cadugər çara dedi:

-İndi mən özüm hədiyyəni sizin ananıza təqdim edəcəyəm.

Cadugər tasın ətrafında dövrə vurub, yox oldu. Çar Qvari oturub gözləyirdi ki, nə vaxt cadugər və onun nökəri peyda olacaq. Çar axşama kimi burada oturdu. Lakin çarın cadugəri gözləməsi əbəs idi. Cadugər yox olmuşdu.

Çar Qvari adamlarını qaçanları təqib etməyə göndərdi. Lakin cadugər sanki yerə batmışdı.

O vaxtdan çar Qvari bir də özünü öymədi.

KAFTARLARIN DAL AYAQLARI NİYƏ QISADIR

(Qottentot nağılı)

Günlərin birində çaqqal kaftarla rastlaşdı. Onlar söhbətləşərkən, dostların başları üzərində böyük bulud göründü.

Onu görən çaqqal buludun dadına baxmaq istədi. O elə ağ idi ki, sanki donuz piyidir. Çaqqal buluda qalxıb, onu yeməyə başladı. O yeyib doyandan sonra aşağı düşmək istədi. Bulud isə bu müddət ərzində daha yüksəyə qalxmışdı.

Onda çaqqal kaftara qışqırdı:

-Bacıcan, mən sənin lə buludu bölüşmək istəyirəm. Məni tut-saxla, mən aşağı düşürəm.

Çaqqal hoppandı, kaftar onu tutub saxladı, onu yıxılmağa qoymadı.

Sonra kaftar buluda, onun zirvəsinə qalxdı və onu yeməyə başladı.

Yeyib doyandan sonra o çaqqala qışqırdı:

-Ey, boz qardaş, indi sən məni tut saxla. Ehtiyatlı ol!

Hiyləgər çaqqal cavab verdi:

-Qorxma bacıcan, en aşağı, mən səni tutub saxlayacağam!

Çaqqal əllərini göyə qaldırdı, kaftar isə buluddan aşağı enməyə başladı. O yerə düşməyə az qalmışdı, birdən çaqqal kənara hoppandı və şikayətedici qışqırdı:

-Oy, bacıcan, mənə acığın tutmasın! Ah, məni necə ağrıdır! Ayağıma tikan girib, yeri möhkəm incidir!

Lakin kaftar özünü saxlaya bilməyib, zərblə yerə dəydi və dal ayaqlarını zədələdi. O vaxtdan deyirlər ki, kaftarın dal ayaqları qabaq pəncələrindən qısadır.

BƏBİR VƏ ÇAQQAL

(Qottentot nağılı)

Ovdan qayıdan bəbir kəndin yaxınlığında qoyun gördü. Əvvəllər bəbir heç vaxt belə heyvan görməmişdi. O qorxdu və qoyuna cəsarətsiz halda yaxınlaşıb soruşdu:

- Dostum, salam! Sənin adın nədir?

Qoyun ayaqlarını tappıldatdı, bərkdən mələdi:

- Mən qoyunam. Bəs sən kimsən?

- Mən bəbirəm, - deyə bəbir cavab verdi. Bunu deyib, o, qorxaq kimi tez burdan uzaqlaşdı.

Yolda bəbir çaqqala rast gəldi və çox qorxulu heyvanı gördüyünü söylədi. Beləsi ilə o hələ üz-üzə gəlməyib.

Çaqqal güldü:

- Oh, sən necə də axmaqsan, bəbir! Sən çox ləzzətli ət parçasını əlindən buraxmısan. Sabah ora birgə gedərik, onu tutub yeyərik!

Ertəsi gün bəbir və çaqqal qoyunu əldə etməyə yollandılar. Onlar kəndə yaxınlaşdılar. Elə bu vaxt qoyun çəməndə otlamağa hazırlaşırdı. O təpədə bəbir və çaqqalı görüb qorxdu. Tez arvadının yanına qaçıb dedi:

- Orada, təpədə bəbir və çaqqal gördüm. Onlar bizə gəlirlər. Belə görürəm ki, bizim axırımız çatıb!

- Qorxma! – deyə arvad cavab verdi, - öz balanı götürüb, onların qabağına çıx. Bəbir və çaqqal yaxınlaşan kimi uşağı çimdiklə, qoy ağlasın, guya acdır.

Qoyun elə də etdi: balasını götürüb, bəbir və çaqqalın qarşısına çıxdı.

Bəbir quzunu görən kimi yenə də qorxdu, hətta geri qayıtmaq istədi. Lakin çaqqal bəbiri özünə dəri iplə bağlamışdı..

- Gəl mənimlə gedək!

Bu vaxt qoyun quzunu çimdiklədi, o da bərkdən mələdi. Qoyun üzünü çaqqala tutub, dedi:

- Sağ ol, çaqqal, nə yaxşı bəbiri mənim yanıma gətirmisən. Görürsən balam necə acdır, yemək istəyir.

Bu sözləri eşidən bəbir qorxudan qışqırmağa və qaçmağa üz tutdu. O dayanmadan təpələri, dağları aşaraq qaçdı. Bəbir özü ilə çaqqalı da dartıb aparırdı. Bu cür o evə kimi qaçdı.

OĞLAN BİKERİ VƏ KAFTAR

(Qusni nağılı)

Çay sahilindəki evlərin birində Bikeri adında bir oğlan yaşayırdı. Bir gün onun nənəsi başqa kəndə qonaq getdi. Bikeri isə gecə evdə tək qaldı. Oğlan qapını bağlamağı unutdu.

Gecə kaftar evə daxil olaraq yatmış Bikerini özü ilə çaya apardı. Kaftar oğlanı burada yerə qoydu. Özü isə çayın dayaz yerini axtarmağa getdi. Bikeri bir azdan ayıldı, gördü ki, o, vəhşi heyvanlar kimi açıq səmanın altında yatıb. O, çox qorxdu.

Oğlan ağaca çıxdı və səssizcə nəfəsini dərmədən burada oturdu.

Kaftar geri qayıtdı. Bikeri isə onun qoyduğu yerdə yox idi.

- Nqau, nqau! – deyə o uladı. Mənim ətimi kim oğurlayıb? Mən onu burada yerə qoymuşdum. Nqau! Burada qoyduğumu kim aparıb?

Bikeri kaftarı görüb daha çox qorxdu. Kaftar isə belə hesab etdi ki, onun şikarı evə qayıtmışdır. O Bikerinin nənəsinin evinə qayıtdı, lakin oğlanı orada tapa bilmədi.

Kaftar odun parçasını götürüb, çaya gəldi – burada onu Bikerini bir az əvvəl gətirdiyi yerə qoydu. Sonra kaftar çaya getdi. Tezliklə geri qayıtdı. Odun parçası onun qoyduğu yerdə idi. Kaftar uladı.

- Nqau, nqau! Mənim ətimi kim oğurlayıb? Bu odun parçası da boynuna almaq istəmir.

Kaftar yenə də nənənin evinə gəldi, bir daha bir odun

parçası götürdü. O istəyirdi ki, yoxlasın görək, onun çikarını kim aparıb? Demək lazımdır ki, nənənin həyətində bir qalaq odun yığılmışdı. Kaftar bütün odunları çayın sahilinə daşıdı və yerə yığdı. Ağır işdən yorulan kaftarın nəfəsi kəsildi və gəbərdi.

Ertəsi gün nənə evə qayıtdı. Otaqa daxil oldu, burada sakitlik idi. Nənə hətta qorxdu da. O, evdə nəvəsini axtardı. Onun gözünə burada əvvəl olmayan bir cığır sataşdı. Nənə həmin izlə gedərək odun qalağı olan yerə gəlib çatdı.

Nənə təəccübləndi: görən bu odunları bura kim daşıyıb? Baxdı və gördü ki, odunların yanında ölmüş kaftar var. Bəlkə o Bikerini yeyib? Nənə ağladı.

- Bu murdar yəqin mənim oğlumu yeyib.

Bikeri isə ağacdan, qışqırdı:

- Yox, mən burdayam!

Nənə nəvəsini öpüşə qərq etdi, sevincindən ağladı. Sonra o Bikerini evə apardı, qurbanlıq qoyun kəsdi, bütün kənd camaatı üçün gözəl məclis qurdu.

AĞAC VƏ TORPAQ

(Linqala nağılı)

Meşədə bütün ağaclardan hündür, böyük bir ağac bitmişdi. Günlərin birində o aşağı baxdı və torpaqdan soruşdu:

-Sən kimsən?

Torpaq cavab verdi:

-Sən məni tanımırsan?

-Yox, mən səni tanımıram! Mən səmanı və günəşi tanıyıram, ayı və ulduzu tanıyıram, küləyi və yağışı tanıyıram, lakin səni tanımıram. Sən kimsən?

Torpaq dedi:

-Sən məni tanımırsan?! Sən bilmirsən ki, mən səni dünyaya gətirmişəm?! Sən mənim bətnimdən çıxmısan. Mən sənin ananam. Sənə gündəlik yem verən mənəm. Sən isə məni tanımırsan? Bu, düzdür?

Ağac cavab verdi:

-Düzdür, mən səni tanımıram. Mən burada, yuxarıdayam, sən isə aşağıda. Mən səni heç tanımıram!

Torpaq dedi:

-Mən torpağam. Mən bütün yaranışların-insanların, heyvanların, quşların, ağacların doğuluşunu və ölümünü görürəm. Axı, hər şey mənə - torpağa qayıdır. Sənin kəllən göyə qalxır, lakin köklərin burada, aşağıdadır. Bunu unutma! Hərçənd, sən yüksəklərdəsən, ancaq bir gün gələcək, burada, aşağıda uzanacaqsan. Sən isə torpağı tanımırsan! Belə, deməli sən məni tanımırsan?

Torpaq bütün qullarını yanına çağırdı. Bura bir neçə

min ac qarışqa gəldi. Torpaq onlara dedi:

-Mənim qullarım, mənə yaxşı qulaq asın! Mən sizi bura boş yerə çağırmamışam. Sizə tapşırılası işim var. Bu ağacı görürsünüz? Ona yaxşı-yaxşı baxın! O məni alçaldıb. O mənə dedi: “Mən səni tanımıram!”. Mən torpağam, sizi çağırmışam ki, özündən razı, təkəbbürlü, lovğa olan bu ağacı məhv edəsiniz. Elə bu andaca işə başlayın və o qoy tezliklə yerə dəysin.

Ac qarışqalar razılıqlarını bildirdilər və böyük səylə, cidd-cəhdlə torpağı qazmağa və kökləri gəmirməyə başladılar. Ac qarışqalar gecə -gündüz, istirahət etmədən, yuxusuz o vaxta kimi işlədilər ki, ağacın bütün kökləri gəmirildi.

Elə bu vaxt ağac yerə dəydi: bux! Torpaq ona baxıb, soruşdu:

-Sən kimsən?

Lakin ağac cavab vermədi. Belə ki, o məhv olmuşdu. Torpaq dedi:

Sən məni tanımırdın! Indi isə tanıdın! Bax, belə!

ŞİR, BƏBİR VƏ KAFTAR

(Makonde nağılı)

Günlərin birində bəbirin yanına çoxlu qonaqlar gəldi. Onlar yedilər, içdilər, şənləndilər və gecə bəbir fikirləşdi ki, qonaqların hamısını yerləşdirə bilməyəcək. Onları harada yatızdırsın?

"Gedim şirin yanına", - deyə o ağlından keçirdi, ondan dünən ovda öldürdüyü kəlin dərisini borc istəyim."

Və o getdi.

- Qulaq asın, şir, evimə çoxlu qonaqlar gəlib, ancaq onları bilmirəm necə yerləşdirim. Əgər mümkünsə, kəlin dərisini mənə borc verin.

- Götür, - deyə şir cavab verdi. Ancaq onu sabah qaytar.

- Mütləq qaytararam.

Səhər qonaqlar bəbirin evini tərk etdilər. O istəyirdi ki, şirin verdiyi dərini qaytarsın, lakin bu vaxt bura kaftar gəldi.

- Əziz, bəbir, bu gün mənim bayramımdır, bizə qonaqlar gələcək. Zəhmət olmasa, kəlin dərisini mənə borc ver.

- Yəqin sən dərinin sahibini tanıyırsan.

- Bilirəm, şirdir.

- Elədir. Yox, dərini sənə verə bilməyəcəyəm. Sənin əməllərindən mənim xəbərim var. Sən verdiyin sözün üstündə durmursan.

- Nə danışırsan, nə danışırsan! – deyə kaftar bəbiri sakitləşdirdi. – Axı dəri məhz aslana məxsusdur! Məgər mən ona əks gedə bilərəmmi?

Bəbir inanıb dərini kaftara verdi.

Ertəsi gün kaftarın qonaqları dağılışıb getdilər. Onun evində yeməyə heç nə qalmadı. Ona görə də ac kaftar dəridən bir parça qopartdı, sonra yenə, yenə... Hamı bilir ki, kaftarlar necə qarınquludurlar, yeməyə nə varsa hər şeyi yeyirlər.

Beləliklə, kaftar bütün dərini yedi.

Şir isə dərini gözləməkdən yoruldu.

"Bu nə deməkdir?-deyə o fikirləşdi. – Bəbir söz vermişdi ki, dərini ertəsi gün qaytaracaq. İki gün keçib, dəri isə hələ də yoxdur".

O evindən çıxıb, bütün savanna boyu qışqırdı:

- Dərini qaytar! Dərini qaytar!

Bəbir qorxub kaftarın yanına qaçdı.

- Dəri hardadır?

- Dəri yoxdur, hörmətli bəbir, mən onu yemişəm.

- Sən nə etmisən! Onda şirə müəyyən bir şey ver.

- Nə verim? Mənim heç nəyim yoxdur.

- Mənim də yoxdur. Onda nə edək?

Onlar çox fikirləşdilər, lakin bir şey uydura bilmədilər.

Beləliklə, o vaxtdan şir savanna boyu gəzir, kəlin dərisini tələb edir və möhkəm nəriləyərək bağırır.

- Dərini qaytar! Dərini qaytar!

Bəbir və kaftar isə onun səsini eşidən kimi qaçıb gizlənirlər

DONUZ VƏ ÇALAĞAN

(Makonde nağılı)

Donuz və çalağan bir vaxtlar dost idilər. Onlar möhkəm dost olsalar da donuz çalağana onun gözəl qanadlarına bir az həsəd aparırdı. Ona görə də donuz dostundan xahiş etdi ki, onun üçün də belə qanad tapsın.

Nəhayət çalağan öz rəfiqəsinin arzusunu yerinə yetirməyə söz verdi. O quşların hər birindən lələk aldı, onlardan qanad düzəltdi və mumla onları donuza yapışdırdı.

Donuz sevindi və dostu calağanla çox yüksəklərə qalxdı. Onlar günəşə yaxın yerdən keçəndə onun istisindən mum əriməyə və qanadlardan lələklər düşməyə başladılar. Donuz aşağı enməyə başladı.

Lələklər azaldıqca donuz aşağı sürətlə enirdi, axırda onun bədəninində bir dənə də olsun lələk qalmadı, donuz burnu üstə möhkəm yerə dəydi. Donuz dostu çalağandan çox incidi və fikirləşdi ki, o qəsdən qanadları ona pis yapışdırmışdı. Dostlar küsüşdülər.

O vaxtdan donuzun burnu beşqəpikliyə oxşayır. O hər dəfə çalağanı görəndə əsəbi halda xortuldayır.

NİYƏ İLANLAR QURBAĞA YEYİRLƏR?

(Malaqasi nağılı)

Günlərin birində ilanla qurbağa rastlaşdılar.

-Gəl dost olaq,- deyə qurbağa dilləndi. –Sən böyüksən, mən isə balaca. Biz bir-birimizə kömək edərik. Sən çox uzunsan, ona görə də ən yüksək yerə dırmaşa bilərsən, mən isə sənin girə bilmədiyin yerə daxil ola bilərəm. Mənim səsim də yüksəkdən çıxır, bu da karımıza gələr. Ancaq yaxşı dost olmaqdan ötrü biz qüvvələrimizi sınamalıyıq. Gəl qaçışla yarışaq, görək kim-kimi tuta bilər. Sən məndən böyüksən, əvvəl sən qaç.

Ilan əyildi, düzəldi, yenə də, yenə də bunu etdi.

Beləliklə qurbağa onu tuta bilmədi.

-Yaxşı qaçırsan, - deyə qurbağa bildirdi.

Növbə qurbağaya çatdı. Qurbağa atıldı, hoppandı, artıq dördüncü hoppanmada ilan ona çatdı və onun arxa

pəncələrindən yapışdı.

-Məni udma, - deyə qurbağa ilana yalvardı. Ağzını bir balaca aç və “a” de.

İlan “a” demişdi ki, və ağzını təzəcə açmışdı ki, qurbağa suya tullandı.

İlan dəhşətli halda təəccübləndi.

Qurbağa isə nohurda öz rəfiqələrinin qarşısında lovğalanmağa başladı: görürsünüz mən necə hiyləgər və cəldəm! - Hamı ilanın gicliyinə var gücü ilə, ürəkdən güldü.

Ilan qurbağanın onu ələ salmasına dözə bilmədi. O öz balalarını yanına toplayıb, onlara dedi:

-Qurbağaları harada görsəniz, onlar harada əlinizə keçsə, onları yeyin! Qurbağaları bütöv yeyin, qoymayın ki, onlar tullana bilsinlər. Ancaq bu cür biz onların qəbilələrini yox edə bilərik.

NİYƏ ƏNTƏR GÖZLƏRİNİ BƏRƏLDİR

(Mancak nağılı)

Günlərin birində heyvanlar dəniz gəzintisinə yollandılar. Onların hər biri bacardığı qədər sükançıya pul ödədi. Sükançı pulları topladıqdan sonra qayıq sahildən ayrıldı.

Onlar açıq dənizə çıxan kimi möhkəm külək əsməyə başladı. O qayığı talaşa kimi bir tərəfdən o biri tərəfə atırdı və tez bir zamanda qayıq su ilə dolmağa başladı. Heyvanlar qayıqdan suyu kənara atırdılar, o isə qurtarmaq bilmirdi.

-Qayıqda biz çoxuq! – deyə sükançı qışqırdı.- Kimisə qayıqdan kənara atmaq lazımdır, yoxsa hamımız batarıq!

-Atmaq! Bəs kimi? Hamı yaşamaq istəyir. - Və heyvanlar qərara aldılar ki, aralarında olan ən kifiri kənara atsınlar.

Sükançı qayıqda olan sərnişinlərə nəzər yetirdi. O, gah birinə, gah başqasına yanaşırdı. Sərnişinlər arasında Kon adlı əntər də vardı. Əntər qorxdu ki, onu qayıqdan kənara ata bilərlər. Ona görə də o gözlərini sürtməyə, ovxalamağa başladı. O bunu o qədər etdi ki , axırda gözləri qırmızılaşdı. Sükançı onun qarşısında dayananda Kon qorxulu it sifətini qaldırdı və gözlərini bərəldib, dedi:

-Sən məni qayıqdan atmaq istəyirsən?

Sükançı qırmızı gözlü qorxulu vücudu gördükdə diksindi.

-Yox, səni yox,- deyə o, cavab verdi.

Sükançı hamını nəzərdən keçirdi, lakin Kondan eybəcərini tapa bilmədi. Hər dəfə sükançı əntərə yaxınlaşanda Kon qanlı gözlərini bərəldib, qışqırırdı:

-Sən məni...?

-Yox,- deyə sükançı cavab verir və irəli addımlayırdı.

Qasırğa isə daha da güclənirdi. Qayıqda su elə hey artırdı. Qərar çıxarmaq lazım idi.

Bu vaxt sükançı vəhşi donuzu gördü. Onun yastı burnu, qısa ayaqları, lap xırdaca gözləri vardı. Sükançı avar çəkənlərə işarə elədi ki, donuzu qayıqdan suya atsınlar.

Əntər Kon həyatını bu cür xilas etdi.

O vaxtdan əntərlər qanla dolmuş qəzəbli gözlərini bərəldir və dişlərini qıcırdırlar, sanki onlar soruşurlar: "Sən məni?" Və bu, onları çox vaxt ölümdən xilas edir.

AYIN ƏMƏLƏ GƏLMƏSİ

(Manden nağılı)

Çoxdan, lap çoxdan hələ ay olmayanda, ölüm də yox idi. Adamlar dünyalarını dəyişmirdilər. Axı onlar göydə zəncirdən asılı vəziyyətdə idilər. İnsanlar həyatdan yorulanda, onlar zəncirlə göyə, buludlardan daha yüksəyə qalxır və orada istədikləri qədər istirahət edirdilər.

O vaxtlar öz sənətinin mahir ustası olan dəmirçi Fazoqo Ba Si yaşayırdı. O, həyatından narazı idi. Bu da əbəs deyildi. Bütün adamların çoxlu uşaqları, çoxlu oğulları vardı, onun isə cəmi iki qızı vardı, oğlu isə yox idi. O, köməkçisiz qalmışdı. Bu hal onu kədərləndirirdi. Axı o, hər şeyi özü edir: kömürü yandırır, körüyü üfürürdü.

Dəmirçi nə qədər qəmlənsə də, bəzən özünə acığı tutsa da onun oğlu yox idi ki, yox idi. Budur, günlərin birində dəmirçi adamlara dedi:

- Artıq yetər, mən göyə gedirəm!

Adamlar ona belə cavab verdilər.

- Gözlə bir az, sənin oğlanların olacaq, onda sən rahatlanarsan.

Və Fazoqo Ba Si qaldı, göyə getmədi. Lakin günlərin birində o, dəmir parçasını möhkəm közərtdi, yenə qəzəbləndi, dəmiri götürüb göyə qalxdı.

Bunu görən dəmirçinin qızları onun ardınca yollandılar.

- Atamızla gedək. O, heç vaxt bizdən ayrılmasın, zəncirləri qıraq, - deyə onlar dilləndilər.

Necə demişdilər, elə də etdilər.

O vaxtdan insanlar ölməyə başladılar.Dəmirçi öz qızları ilə göyə gedəndən sonra adamlar həmişəlik öz zəncirlərini itirdilər.

Dəmirçinin közərtdiyi dəmir parçası ay oldu.

Ay gecə hilal vəziyyətində olanda adamlar deyirlər:

- Budur Fazoqo Ba Si öz dəmirini közərdib. Ay göydə bütöv olanda isə camaat belə söyləyir:

- Budur dəmirçi işini görüb qurtarıb.

Ayın ətrafında iki balaca ulduz var. Onları ancaq aydın gecədə görmək olar. Bu ulduzlar dəmirçinin qızlarıdır.

KASIB DOVŞANIN EVLƏNMƏSİ

(Manden nağılı)

Biri vardı, biri yoxdu, bir qarı vardı. Onun Anni adında nəvəsi böyüyürdü. Qızın gözəlliyi haqqında söz-söhbət çox uzaqlara gedib çıxmışdı.

Varlı heyvanlar – fil, buğa, şir, kərgədan, pələng toplaşıb qərara aldılar ki, Anninin yanına gedərək onun razılığını alsınlar. Onların hər biri ən yaxşı paltarını geyindi və bu varlılar Anni və onun nənəsi üçün hədiyyələr də götürdülər.

- Məni də özünüzlə götürün! – deyə kasıb dovşan onlardan xahiş etdi.

- Xa-xa-xa! Ho-ho-ho, - deyə varlı heyvanlar bu sözə güldülər.

- Bir buna baxın, bir buna qulaq asın! Xa-xa-xa! Lütün, dilənçinin biri Anni kimi gözəllə evlənmək istəyir.

- Ho-ho-ho!

Varlı heyvanlar dovşana gülüb yola düzəldilər. Dovşan isə onların arxasınca getdi. Onun əynində köhnə yamaqlı şalvar, rəngi solmuş köynək, başında isə bir neçə yerdə deşiyi olan papaq var idi. O varlıların tayı olmadığı üçün onlar haçaqulağı lağa qoyurdular.

- Tezliklə heyvanlar başında bir şələ odun aparan qarıya çatdılar.

- Balalarım, mənə kömək edin, – deyə o varlılara müraciət etdi. Lakin bu heyvanların heç biri başını qarıya tərəf uzatmadı. Onların əynində təmiz ağ köynəklər və kostyumlar vardı. Və onlar həm də gənc və gözəl gəlin Anninin yanına tələsirdilər.

Kasıb dovşan isə ayaq saxlayıb, qarıya dedi:

- Verin, mən sizə kömək edim!

O özünün köhnə papağını çıxartdı, qarıdan xahiş etdi ki, onu tutsun, özü isə kirli odun şələsini başına qoydu və gümrah şəkildə yolla addımladı.

Varlı heyvanlar Anninin evinə gəlib ona öz hədiyyələrini təqdim etdilər və təklif edəndə ki, onlardan birini özü üçün adaxlı seçsin, Anni cavab verdi ki, tezliklə nənəsi gələcək və bəyi ancaq o seçəcək.

Tezliklə qarı evə qayıtdı.

- Anni, - deyə o astadan dilləndi. Tez ol, bizim qonağımız üçün su qızdır. O çirkli şələni daşıdığı üçün yuyunmalıdır. Hə, bir də onun köynəyini yumağı unutma!

Qarı yuyundu, geyindi və varlı qonaqların qarşısına çıxdı. Onların bəziləri oturmuş, bəziləri isə özlərini dartmış halda yerə sərələnmiş, əllərini də ciblərinə qoymuşdular.

- Niyə gəlmisiniz? – deyə qarı onlardan soruşdu. Varlılar ona hədiyyələri təqdim etdilər və xahiş etdilər ki, Annini onlardan birinə ərə versin.

- Sizin gəlişiniz mənim üçün şərəfdir, - deyə qarı dilləndi. - Bizim kasıb komamızdan iyrənmədiyinizə görə sağ olun. Lakin siz gecikmisiniz. Bilin, mənim artıq öz kürəkənim var. O əsl zəhmətkeşdir. Bilirəm ki, o mən qarını darda qoymaz və əziz nəvəm Anninin yaxın dostu olacaq.

Və qarı dovşanı çağırdı. Haçaqulaq təmiz köynəkdə və saçları daranmış halda varlı heyvanların qarşısına çıxdı.

Təəccübdən varlı heyvanlar çaşıb qaldılar və ah çəkdilər. Lakin nə etmək olar? Biyabır olmuş varlı heyvanlar heç nə əldə etmədən çıxıb getdilər.

Məhz buna görə də o vaxtdan varlı heyvanlar yazıq balaca dovşanı sevmirlər.

UZUNQULAQLARIN YARANMASI HAQQINDA

(Mankan nağılı)



Bir vaxtlar dünyada atlar yaşayırdılar, uzunqulaqlar isə hələ həyatda yox idilər. Bu atların arasında yaddaşı çox pis olan bir at vardı. Günlərin birində o allahın yanına gəlib dedi:

-Cənab allah! Zəhmət olmasa deyin, mənim adım nədir?

Allah ona baxıb, cavab verdi:

-Sənin adın atdır!

Iki gün keçməmiş at yenə də allahın yanına gəldi və xahiş etdi ki, onun adını bir də yada salsın.

Allahın gözəl əhvali-ruhiyyəsi vardı. O gülümsündü və dedi:

-Sənin adın Atdır. Huşsuz olma, adını daha yaddan çıxarma və boş-boş işlərlə mənim başımı qatma, mənim

onsuz da işim başdan aşır.

At minnətdarlıqla başını yellədi və çıxıb getdi.

Yenə də bir neçə gün keçdi. Budur, gecənin bir aləmində at yuxudan ayıldı və adını heç cürə yadına sala bilmədi. O çox fikirləşdi, ancaq nəticə hasil olmadı. Atın qanı qaraldı və qərara aldı ki, yenə də allahın yanına getsin və ondan öz adını soruşsun.

Bu dəfə allahın əhvalı çox pəjmürdə idi. Eşidəndə ki, at yenə də əvvəlki istəyinə görə gəlib, bərk hirsləndi:

-Sən uzunqulaqsan. Bil ki, eşşəksən!- deyə allah bərkdən qışqırdı.- Başa düşdün? Eşşəksən və eşşək də qalacaqsan.

Və allah həmin ata uzun qulaqlar qoydu ki, deyilənləri yaxşı eşitsin.

O vaxtdan yer üzündə uzunqulaqlı eşşəklər yarandı.

XURMA

(Mərakeş nağılı)

Allah Adəm və Həvvanı cənnətdən qovaraq, cəza verib göndərdi. Yerə gələn kişi böyük Allaha dua etdi ki, onlar üçün yeməyə bir şey göndərsin.

Tanrı cavabında dedi:

- Dırnaqlarını tut və arvadının saçlarını kəs, onları yerin dərinliyinə basdır.

Adəm deyilənlərə əməl etdi. Elə həmin anda ağac böyüdü, çox hündürlüyə qalxdı, budaqları ətrafa şaxələndi. Ağacın gövdəsi kələ-kötür idi, o sanki dırnağı tutulmuşa bənzəyirdi, yarpaqlar isə Həvvanın saçları kimi zərif və uzun idilər.

Hamını yoldan çıxaran, Adəm və Həvvanı cənnətdən qovduran şeytan xurma ağacını görüb, qəzəbdən onun ətrafında hoppanmağa başladı. Hətta o hirsindən hönkürtü ilə ağladı və onun göz yaşları yarpaqların üzərinə düşərək, onları tikanlı etdi.

Mərakeşdə xurmanı hamı çox sevir və hər bir ağaca böyük sayğı göstərilir. Onun meyvələri zərif və bal kim şirindir, o ən çətin vaxtlarda belə insanları aclıqdan xilas edir.

DOVŞAN VƏ TISBAĞA

(Mərakeş nağılı)

Bir gün dovşan çayın kənarında tısbağaya rast gəlir və ona deyir:

- Gəl, sənlə qaçaraq ötüşək. Qalibə mükafat təyin edək.

- Bir səbət dəymiş meyvə. Həmin səbəti hündür təpənin başına qoyaq. Kim ora birinci çatsa, meyvələri də o yesin.

Tısbağa bir az fikirləşdi və razılaşdı.

Onlar səbəti meyvə ilə doldurub hündür təpənin başına qoydular, özləri isə çayın sahilinə qayıtdılar.

- Qaçırıq! – deyərək dovşan qışqırdı. O bilirdi ki, tısbağadan çox yeyin qaçır. Tısbağa da bilirdi ki, dovşana çatmaq olmaz. Lakin yenə də o, təpəyə çıxmaq üçün var qüvvəsini topladı.

Dovşan isə gülməkdən özünü saxlaya bilmir, otun üzərində o yan, bu yana diyirlənirdi. Nəhayət, özünə gələn dovşan gördü ki, tısbağa hündür təpəyə çatmaq üzrədir. Dovşan var qüvvəsi ilə yuxarı qalxmağa başladı. Lakin dovşan gecikdi. O, təpənin zirvəsinə çatanda tısbağa artıq şirəli meyvələri yeyirdi.

Görək niyə belə alındı?

Tısbağa dayanmadan məqsədinə doğru gedirdi. Dovşan isə otluqda diyirlənərək özünü öyürdü. Gopçuya yeyin ayaqlar da kömək edə bilməz.

ÇAQQAL VƏ XORUZ

(Mərakeş nağılı)

Bir gün İtlə Xoruz uzaq səfərə çıxdılar. Onların yolu dağlardan, təpələrdən, çaylardan keçirdi. Onlar dərədəki tarlalarda gecəliyirdilər. Bir gün onlar meşədə qalmalı oldular. Xoruz böyük palıd ağacına qalxdı. It isə onun koğuşuna girib yatdı.

Səhər sübhdən xoruz qanadlarını çırpıb bərkdən banladı. O, mahnısını tamamlamamış, Çaqqal burada göründü.

-Şükür olsun Allaha, sənə belə gözəl səs verib,- deyə çaqqal üzünü xoruza tutdu. Sənin səsini eşitcək özünü ibadətə həsr etmək istəyirsən. Sənin səsini eşidən kimi mən işimi gücümü atıb, bura gəldim. Indi isə, xoruz, mahnını bitir düş aşağı, birgə dua edək!

Xoruz dərhal başa düşdü ki, Çaqqal dindarlıqdan uzaqdır. Çaqqalın bura gəlişinin məqsədi, onu yemək istəməsidir. Ona görə o, Çaqqala belə dedi:

-Mən aşağı düşənə kimi koğuşda yatan keşişi oyat.

Çaqqal koğuşa nəzər yetirəndə gecə növbəsindən sonra yatan İti gördü və qorxudan dili topuq vuraraq:

-Gözlə, gözlə! Mən bulağa gedib əl-üzümü yuyum.

Və çaqqal burdan götürüldü, bu yerlərdən uzaqlaşmağa çalışdı.

XALLAR

(Misir nağılı)

Allah Yeri yaratdı. Və ora iki ilk adamı-Adəm və Həvvanı göndərdi. Allahın yaratdıqları elə gözəl idilər ki, yamanlığa öyrənən şeytan həyəcanlandı və fikirləşməyə başladı: "Allahın qəzəbinə gəlmədən necə etsin ki, onları eybəcər hala salsın". O, çox fikirləşdi və nəhayət, düşünüb tapdı.

Bir gün şeytan tikanlığın arasında gizləndi və gözləməyə başladı ki, onlardan biri-kişi, ya arvad , ancaq tək-tək nə vaxt gələcəklər. Budur, Həvva gəldi

O, şeytanla bərabər məsafədə olanda yamanlığından əl çəkməyən şeytan yazıq qadına bir ovuc qum atdı. Lap xırda daşlar Həvvanın üzünə və bədəninə batdı və onu eybəcər hala saldı.

Şeytan elədiyi hərəkətdən çox razı qalmışdı.

Lakin, xeyirxah və böyük Allah hər şeyi gördü. O, bu eybəcərlikləri gözəl kiçik xallara çevirdi və onlar da qadını daha cazibədar, və füsünkar etdi.

TİMSAH VƏ QARABATDAQ

(Misir nağılı)

Bir gün ac timsah Nillə üzür ki, yemək üçün nəsə tapsın. Birdən o görür ki, suda bir qarabatdaq dayanıb. Timsah istədi ki, onu tutsun, lakin fikrə getdi. "Qarabatdağın dimdiyi nizənin ucu kimi iti, boynu isə sanki nizənin ağacıdır. O heç də asan əldə edilən şikara oxşamır".

Timsah soruşdu:

- Dostum Qarabatdaq, niyə sənin dimdiyin belə itidir? Yəqin, o, nizə kimi hər şeyi dələ bilir.

- Sən səhv etmirsən,- deyə qarabatdaq cavab verdi. Yoxlamaq istəyirsən?

- Mən yoxlayardım, ancaq qorxuram.

- Qorxma, mən gücümün dörddə biri qədər zərbə endirərəm.

- Yaxşı,- deyə timsah razılaşdı. Özü isə fikirləşdi. "Əgər qarabatdağın dimdiyi o qədər iti , gücü o qədər yüksək deyilsə, mən onu yeyərəm".

Timsah başını irəli uzadıb gözlərini qıydı. Qarabatdaq isə axmaq deyil, o yuxarı qalxıb iti dimdiyi ilə timsahın gözünə möhkəm ilişdirdi. Dünya Timsahın başına fırlandı.

- Oy! Oy!- deyə o qışqırdı. Daha lazım deyil, mən görürəm ki, sən necə güclüsən.

Və timsah çaya baş vurmağa tələsdi.

O vaxtdan bütün qarabatdaqlar Nil çayını rahat keçirlər və timsahlar onlara toxunmurlar.

SEHRLİ ÜZÜK

(Misir nağılı)

Bir vaxtlar əyalətdə ər-arvad yaşayırdı. Onların bir oğlu vardı. Oğlanın atası çox tez vəfat etdi və ana dul qaldı. Dolanmaq üçün ana yun daramağa başladı. Ona görə qadına "Yun darayan" deyirdilər. Onun həyatı ağır olsa da çətinliklə yüz rial toplaya bildi. Bir gün oğlu bu pulları götürüb bazara getdi. Yolda o, qoltuğunun altında quş aparan bir kişiyə rast gəldi.

- Ona nə istiyirsən? – deyə gənc soruşdu.
- Yüz rial.

Yun darayanın oğlu pulu ona verib quşla oynamağa başladı. Bu vaxt quş uçub getdi və kolda oturdu. Gənc pərt olub acı-acı ağladı. Birdən gənc ayaqlarının arasında bir üzük gördü. Gənc onu yerdən qaldırıb əlində fırlatdı. Təccüblü olsa da üzük danışmağa başladı.

- Nə istəyirsən, cənab?
- Mən öz quşumu istəyirəm.

Elə o, anda quş onun əlinə qondu.

Gənc yenə də üzüyü fırlatdı.

- Nə istəyirsən, cənab?
- Mən kuskus yemək istəyirəm. Onun istəyi elə o anda yerinə yetdi. Oğlan quşu evə gətirdi.
- Yüz rial hardadır? _ deyə anası soruşdu. Doğrudanmı mənim bütün zəhmətimi bu quşa dəyişmisən?

Ana ağlamağa başladı. Ogul isə:

- Ana, get şahın hüzuruna, qızını mənim üçün istə, - dedi.

- Gicbəsər! – deyə ana qışqırdı. - Sən yundarayanın oğlusan. Sən necə şah qızıyla evlənə bilərsən?

Lakin oğlu təkid etdi və anası şah sarayına getməli oldu.

- Cənab – deyə o, dili topuq vura-vura sözünə başladı, - mənim oğlum sənin qızını istəyir.

- Əgər o mənim qızımla evlənmək istəyirsə, qoy zibilxananın yerində böyük saray tikdirsin. Ertəsi gün səhər ana yenə şahın yanına gələrək dedi:

- Əlahəzrət! Sənin dediyin yerinə yetirilib, zibilxananın yerində imarət tikilib, sənə daha nə lazımdır?

- Əgər o mənim qızımla evlənmək istəyirsə, gərək yüz taxta qab düzəltsin və içərisinə kuskus doldursun.

Qablar hazır olandan sonra oğlan üzüyü çevirdi və ona dedi:

- Qablar kuskusla dolsun.

Son sınaq kimi şah ona təklif etdi ki, bütün kuskusları yesin, yerə bir gilə də düşməsin. Gənc bu şərti də yerinə yetirdi. Şərtlər yerinə yetirildikdən sonra şah qızını ona verdi. Başısoyuq və sadəlövh gənc üzüyü arvadına bağışladı. Bir gün səyyar ticarətçi arvadın barmağında bu üzüyü görüb, belindəki bir tayı yerə qoyub dedi:

- Istəyirsən üzük üçün sənə bütün malımı verim.

- Bu sözlərə qadın razılaşdı. Öz ölkəsinə qayıdan səyyar tacir üzüyə dedi:

- Qoy yundarayanın imarəti bura köçsün, özü və ailəsi əvvəlki yerində qalsın.

Gəncin imarəti dərhal yox oldu. Kədərlənmiş gənc ağladı, it və pişiyinə müraciət edərək dedi:

- Üzüyü tapın.

İt və pişik getdilər. Onlar səyyar tacirin evini tapana kimi çox ölkələrdə oldular. Pişik üzük olan evdə, siçanların üstünə cumdu. Onlar qorxdular və pişikdən aman istədilər.

- Sən nə istəsən biz onu gətirərik, - deyə siçanlar söz verdilər.

- Yaxşı, - onda mənim üçün üzüyü tapın.

Siçanlar bütün evi axtardılar, lakin üzüyü tapa bilmədilər. Nəhayət onlar öyrəndilər ki, tacir onu ağzında gizlədir. Siçanlardan biri quyruğuna yağ çəkdi, sonra onu istiota buladı. Daha sonra bu siçan tacirin yataq otağına gəldi. Tacir yatmışdı. Siçan quyruğu ilə onun burnunu qıcıqlandırdı. Tacir asqırdı, üzük onun aqzından düşdü. Siçan üzüyü götürüb pişiyin yanına qaçdı.

Evə qayıtmaq üçün it və pişik dənizi keçməli idilər. Pişiyin üzüyü itirə biləcəyindən qorxan it istədi ki, onu tutsun, üzük əlindən suya düşdü. Balıq tez üzüyü uddu. Pişik izlədi ki, balıqçılar həmin balığı tutsunlar. Pişik onlardan həmin balığı aldı. Onu yararaq üzüyü çıxardı. Nəhayət onlar evə qayıtdılar və üzüyü öz sahibinə verdilər.

- Üzük, böyük bir qab ət və çörəklə dolsun, - deyə yundarayanın oğlu üzüyə buyurdu.

Qab ət və çörəklə doldu. Iti və pişiyi yedizdirib o heyvanlara dedi:

- İndi isə üzük, imarəti əvvəlki yerinə qaytar.

Bundan sonra yundarayanın oğlu axmaq arvadını qovdu, taciri isə öldürtdü.

BALIQÇI VƏ ŞAHZADƏ

(Misir nağılı)

Biri vardı, biri yoxdu, bir balıqçı vardı. Bir gün səhər tezdən o, böyük bir balıq tutdu. Balıqı evə apardı, özü isə yenə balıq tutmağa qayıtdı.

Günorta o,evə qayıtdı, gördü nə balıq var, nə də onun daxması. Daxmanın yerində gözəl bir saray ucalırdı.

Balıqçı yeni evin sahibəsindən daxmanın və balığın necə yox olduğunu soruşdu.

- Həmin balıq mənəm, - deyə gözəl gülümsədi. Sən məni tutdun, qorxulu cadu dağıldı, yox oldu və mən yenə insana çevrildim.

Onlar evləndilər.

Bir gün mülayim yaz səhərində gözəl gəlin çimməyə yollandı. Şahzadə qızı görən kimi ona vuruldu. Tezliklə şəhzadəyə məlumat verildi ki, gözəl yerli balıqçının arvadıdır. Şəhzadə qərara aldı ki, balıqçını məhv etsin.

Səhər balıqçıya bildirildi ki, saraya gəlsin. O, qorxa-qorxa şəhzadənin qarşısında dayandı. Şahzadə onu

qəzəbli baxışlarla süzüb, əmr etdi.

- Səhər eyni vaxtda ağlayaraq və gülərək saraya gələrsən.

Balıqçının ürəyi ayağının altına düşdü. Kim eyni vaxtda həm ağlaya, həm də gülə bilər- deyə o fikirləşdi.

- Qəm yemə, - deyə arvadı onu sakitləşdirdi. – cibində baş soğan gizlət, şahzadənin yanına getməmişdən əvvəl onu yumruqunla əz və iylə. Yaş sel kimi tökülləcək, sən isə möhkəm gül, beləliklə şəhzadənin dediyini yerinə yetirmiş olarsan.

Balıqçı qəhqəgə çəkə-çəkə saraya daxil oldu, gözlərindən isə yaş axırdı.

Az vaxt keçdi, şahzadə adamlarını balıqçının dalınca göndərdi və bu dəfə belə bir əmr verdi.

- Bu dəfə saraya eyni zamanda həm geyimli, həm də lüt gələrsən. əmri yerinə yetirməsən, öldürüləcəksən.

- Qəm yemə, - deyə arvadl ərinə ürək-dirək verdi.

- Lüt bədəninə balıqçı torunu atarsan.

Balıqçı arvadının dediyi kimi elədi. O, şahzadə və saray əyanlarının qarşısında duranda hamı bir ağızdan dedi:

- O, həm geyinmişdir, həm də, lütdür.

Bu dəfə də şahzadənin məkrli niyyəti baş tutmadı.

Şahzadənin əmri ilə balıqçı üçüncü dəfə saraya gəldi. O, balıqçıya dedi:

- Sən bura yeni doğulmuş uşaqı gətirərsən, gərək o, mənə bir əhvalat danışsın. Əks halda boynunu vurduracağam.

“Bunun altından çıxa bilməyəcəksən” – deyə şahzadə fikirləşdi.

Balıqçı sifətinə qara buludlar çökmüş kimi evə gəldi.

Bu dəfə də onun gözəl arvadı onun köməyinə gəldi.

- Get çaya, - deyə gözəl ona tapşırıq verdi. – Tilovu məni tutduğun yerə at. Qarşına bacım çıxacaq. Ondan dünən doğulan uşağını istə, uşağı saraya apar. O, şaha əhvalat nəql edəcək.

Balıqçı uşaqı qucaqına alıb saraya yollandı.

Şahzadə gülümsündü və kinayə ilə soruşdu:

- Bu uşaq mənə əhvalat nəql edəcək?

- Nəql edəcəyəm, deyə körpə qışqırdı, əhvalatı belə başladı:

- Çox dövlətli bir adam vardı. Onun torpaq sahələrinin ucu-bucağı görünmürdü. Bu torpaqlarda buğda, arpa, düyü, qarğıdalı yetişirdi. Bir gün bu dövlətli qərara aldı ki, küncüt əksin. O, böyük məhsul əldə etdi. Yüzlərcə küncütlə dolu kisələri anbara daşıdılar. Bütün kisələr çəkiləndən sonra, dövlətli dedi ki, axırıncı kisədə bir küncüt çatmır. O, hamını məcbur etdi ki, həmin tumu tapsınlar. Muzdurlar axtardılar, lakin, tum tapılmadı ki, tapılmadı.

- Cəfəngiyatdır! – deyə şahzadə uşağın sözünü kəsdi.

- Əgər dövlətlinin küncüt dolu kisələrinin sayı-hesabı yoxdursa niyə o bir küncüt dənəsini axtarır?

- Sarayında çoxlu gözəl qızlar, qadınlar olmasına baxmayaraq, şahzadəyə özgənin arvadı nə lazımdır ki, hər vasitəyə əl atır. Bu cəfəngiyyat deyilmi? – körpə cavab verdi.

Şahzadə balıqşını azad buraxdı. Bir daha balıqçını gözəl arvadından ayırmaq fikrinə düşmədi.

İT, CANAVAR VƏ TÜLKÜ

(Misir nağılı)

Bir gün Tülkü yolda oturmuşdu. Birdən o gördü ki, Canavar və İt yan-yana, böyür-böyürə gəlirlər. Onlar tülküyə yaxınlaşanda, o, mehribancasına salamlaşıb dedi:

-Mənim çox xoşuma gəldi ki, siz yan-yana tam yaxşı dostlar kimi gedirsiniz. Axı hamıya məlumdur ki, Canavar və İt düşməndirlər. Mən bilmək istəyirəm ki, sizin dostluğunuz necə yaranıb? Danışın və mən buna daha çox sevinərəm.

İt nəql etməyə başladı.

-Dünən Canavar, mənim indiki qardaşım və dostum quzunu parçalayıb yemək istədi. Mən sürünü qoruyurdum, öz borcumu yerinə yetirib, Canavarın dalınca qaçdım, lakin onu tuta bilmədim. Ürəyimi kədər bürüdü. Mən geri qayıdanda qəzəblənmiş çoban məni söydü və döyməyə başladı. Bu ədalətsizlikdən inciyib mən öz nankor, yaxşılıq bilməyən sahibimi atıb, Canavarın yanına getdim. Budur biz dost olmuşuq. İndi mən taleyimdən tam razıyam və xoşbəxtəm.

Boş yerə sadiq dostları incitmək olmaz.

Onda onlar düşmənlərimizin dostuna çevrilirlər.

HEYVANLAR İNSANLARA NİYƏ ETİBAR ETMİRLƏR

(Moba nağılı)

Günlərin birində çaqqalın başı yem axtarmağa elə qarışdı ki, bir də gördü ki, o kəndin kənarındadır. O çox yorulmuşdu. Təhlükəli yerdən qaçmaq əvəzinə, o yaxınlıqdakı dar dərədə gizləndi.

Bu vaxt yolda adamlar göründülər, - iki ovçu bərkdən söhbət edə-edə evə qayıdırdı.

- Ləpirlərə bir bax!-deyə biri o birinə dedi.-Görünür çaqqal bizim toyuqların yanına təşrif buyurub. Gedək adamları toplayaq və onu tutaq.

Çaqqal fikrə getdi: "Burada qalmaq axmaqlıqdır, onlar məni tuta bilərlər. Bəs mən harada gizlənim?" O fikirləşib tapdı. Və çaqqal düz kəndə üz qoydu.

Elə bu vaxt bir qadın komadan çıxıb, qonşuya yollandı. Qapını isə bağlamağı unutdu.

Çaqqal güllə kimi komaya girdi, ətrafa baxdı, rahat nəfəs aldı, nəhayət o istədiyini burada tapdı. Qaranlıq küncdə bükülmüş həsir vardı. Çaqqal tez onun içərisinə girib, boybaboy uzandı və səssizcə burada qaldı. Bir neçə dəqiqədən sonra komaya oğlan daxil oldu və otağı süpürməyə başladı. O, həsirdən yapışdı ki, onu bayıra çıxarsın, lakin bacarmadı, hətta onu qaldıra da bilmədi. O çox ağır idi. Oğlan təəccüblə həsiri üzünə tərəf dartdı, həsir açıldı və onun içərisindən çaqqal cəld kənara sıçradı. Oğlan özünə gəlməmiş çaqqal pıçıldadı:

- Qışqırma ha, mən sənə heç bir pislik etməyəcəyəm.

Sus! Mumlasan əvəzini verərəm.

Oğlan gördü ki, çağırılmamış qonaq heç də təhlükəli deyil.

- Hə, yaxşı, - deyə oğlan dilləndi. – Mən susuram. Bunun müqabilində mən nə əldə edəcəyəm?

- Məni burdan çıxar, mən sənə çoxlu şikar əldə etməyə kömək edərəm. Bunu görüb kənddəkilər paxıllığdan partlayarlar. Deyərlər ki, o, balaca olsa da əsl ovçudur.

- Yaxşı, mən səni buradan necə çıxarım?

- Bu, çox sadədir. Budur, ananın toyuqları bazara apardığı səbət. Mən bu səbətə girərəm, sən onun qapağını bağlayarsan və hər şey hazırdır. Əgər səndən soruşsalar ki, səbətdəki nədir, deyərsən ki, toyuqları babama aparıram.

Necə deyilmişdi elə də edildi. Oğlanın çaqqalı meşəyə gətirməsini heç kəs görmədi. Oğlan səbəti yerə qoydu, qapaqını açdı və çaqqal oradan kənara atıldı.

- İndi sən verdiyin sözə əməl et, - deyə oğlan çaqqalın yadına saldı.

- Aha, əlimə keçdin! - deyə çaqqal zingildədi.

Oğlan özünə gəlməmiş çaqqalın möhkəm dişləri onun ayaqlarından yapışdı. Oğlan ağladı:

- Məni burax, çaqqal! Axı mən sənin həyatını xilas etdim. Burax məni, evə gedim. İstəyirsən hər gün sənə bir toyuq gətirim?!

Çaqqal gülümsəyərək dedi:

- Elə bilirsən sənin şirin boşboğazlığına inanacaqam. Meşədə birinci yalançı kimi tanınan məni dolamaq üçün sən hələ balacasan!

Xoşbəxlikdən oğlanın ağlamağını fil eşitdi. Fil yaxına gəldi və xortumunu qaldırıb, möhkəm səs çıxartdı:

- Burada nə baş verir?

Oğlan şikayətedici halda ağlamağa başladı:

- Fil baba, mənə yazığın gəlsin! Əmr et yalançıya, qoy məni buraxsın! Mən onun həyatını xilas etmişəm, o isə məni öldürmək istəyir.

- Bu düzdür, çaqqal? – deyə fil qəzəblə soruşdu.

- O qədər də yox, o qədər də yox, - deyə çaqqal mırıldandı. – İndi mən sənə hər şeyi izah edərəm.

- Səsini kəs! Əvvəlcə mən insan balasını dinləmək istəyirəm.

Oğlan hər şeyi olduğu kimi danışdı. Fil ancaq başını buladı.

- İndi mən inandım ki, sən çaqqal haqlısan. İnsan balası yalan deyir! Heç bir çaqqal bu səbətə girə bilməz. Hər halda mən buna əmin olmalıyam. Çaqqal bir özünü göstər görək, ora necə yerləşmisən?

Çaqqal işin belə hal almasından razı idi. O, səbətə girdi və var gücü ilə ilə özünü şişirtdi ki, bu səbət onun üçün çox dardır. Bir anda fil səbətin qapağını bağladı və oğlana müraciətlə dedi:

- Deməli, adam balası, təsdiq edirsən ki, bu cür ağır yükü başında bura gətirmisən?

Oğlan yerə çömbəldi, səbəti başına qoyub asanlıqla qalxdı.

- Bu düzdür ki, insanların belə bir xüsiusiyyəti var ki, tuttuqları çaqqalları öldürürlər, - deyə fil soruşdu.

- Hə, - deyə oğlan cavab verdi. – Ona görə ki, çaqqallar bizim toyuqları qırırlar.

- Lap yaxşı, deyə fil xortumu ilə ucadan səs saldı. – Mən görürəm ki, insan balası, sən düz danışırsan və sənə etibar etmək olar. Biz kəndə yaxınlaşanda, mən səni burada gözləyəcəyəm. Çaqqalı apar ver atana, bunun müqabilində ondan ağ xoruzu xahiş et, - mən onu ara həkiminə verəcəyəm ki, arvadımı sağaltsın.

Kəndin qırağında oğlan fildən ayrıldı və evə qaçdı.

- Ata! Ata! – deyə o qışqırdı. – Gəlin bura çaqqala baxın, mən onu tutub səbətə salmışam.

Ata və ana öz oğullarını tərifləməyə başladılar. Bu təriflərdən oğlan başını itirdi.

- Hələ bu nədir, - deyə o, davam etdi. Mən filin özünü də tutmuşam. Ata, tüfəngini və itlərini də götür, qonşuları çağır. Mən onu ağacın yanında qoymuşam. Sən isə, ana, şöhrətli ovçu üçün yemək hazırla.

Elə bu vaxt fil astaca, başqa tərəfdən kəndə yaxınlaşdı, - o qərara gəldi ki, öyrənsin, insanın balası öz verdiyi sözünə əməl edirmi? Tezliklə, o silahlanmış adamları itlərlə birgə oğlanın onun qoyduğu yerə tərəf getdiklərini gördü. Fil başını buladı və tələsmədən evinə doğru yollandı.

- Hə, mən nahaq yerə ehtiyat etmirdim, - deyə fil deyindi. Oh, bu insanlar necə yalançıdırlar.

O vaxtdan dördayaqlılar ikiayaqlılardan daim özlərini qoruyurlar.

MEYMUN, PİTON VƏ DOVŞAN

(Soto nağılı)

Çoxdan, lap çoxdan insanlar heyvanlar kimi danışmağı bacaranda bir meymun yaşayırdı.

Bir gün səhər meymun özünə yem axtarmağa yollandı. Budur o təpəyə qalxdı, oradakı günəş istisinin altında olan daşı qaldırdı, orada soxulcanlar, əqrəblər, böcəklər vardı. Meymun onları ləzzətlə yedi və yoluna davam etdi.

O getdi, getdi birdən yolda bir daş gördü. Hamar daşın altında isə nəhəng güclə nəfəs alan piton vardı.

Piton meymundan xahis etdi:

- Ay mənim atamın balası, daşı çevir, mən onun altından çıxa bilim. Mənə kömək elə!

Meymun daşı qaldırdı və pitonu xilas etdı. O daşın altından çıxan kimi meymundan yapışıb, onu udmaq istədi. Meymun qışqırdı və pitondan xahiş etdi ki, onu əfv etsin, lakin o heç nə eşitmək istəmirdi.

Bu vaxt onların yanından bir dovşan keçirdi. Bədbəxt meymun dovşana xahişlə müraciət etdi ki, pitonun ona olan münasibətini ayırd etsin. Piton və meymun baş verənlərin hamısını nəql etdilər. Dovşan fikirləşdi, hey fikirləşdi, sonra cavab verdi:

- Mən heçnə başa düşmürəm!
- Piton, meymun səni necə görmüşdüsə o cür daşın altına keç. Mən görmək istəyirəm ki, həqiqətən hər şey necə olub.

Dovşan necə demişdisə, onlar o cür də etdilər. Piton uzandı, meymun böyük hamar daşı onun üstünə yıxdı. Bunu görüb dovşan meymuna dedi:

- İndi isə, bacım mənim, qaç burdan!

Onların hər ikisi qaçdı, piton isə əvvəlki kimi daşın altında qaldı.

İT VƏ PİŞİK

(Suaxili nağılı)

Elə vaxtlar olub ki, ilk dəfə qoxunu hiss edən pişik olub.

İt fikirləşdi: “Pişiyin bəxti gətirib. Yeyilməli olan hər şeyin iyini uzaqdan hiss edir. Başqa heyvanlarda isə, ilk növbədə, onu görmələri vacibdir”.

İt qərara gəldi ki, pişikdən xahiş etsin və o bunu ona öyrətsin.

Pişik razılaşdı. İt pişiyin evində yerləşdi və o iti öyrətməyə başladı.

Müəyyən vaxt keçdi və it qərara aldı ki, bəsdir oxudum. Mən daha hər şeyi bilirəm.

-Vaxtdır,- deyə it pişiyə dedi, - evə qayıdıram. Mən artıq iyə əsasən özümə yemək tapmağı bacarıram.

-Axı sən bunun incəliklərini bilmirsən,- deyə pişik

cavab verdi. Bir az gözlə!

Lakin it sözünün üstündə durdu.

-Yaxşı,- deyə pişik qərarlaşdırdı, səni buraxıram, lakin bu gün yox, sabah.

Özü isə səhər tezdən öz pişik dostuna belə dedi:

-Əgər it məni soruşsa, de ki, ova gedib. Qoy məni orada axtarsın.

Pişik çox istəyirdi ki, öyrənsin, it oxuduğu müddətdə nəyi öyrənib.

İt iyləyərək, pişiyin qoxusunu hiss etdi və bu iyə əsasən meşəyə getdi. O gəlib pişiyin gizləndiyi yerə çatdı. Pişik isə öz izini belə itirdi: o bir daşın üstündən o birinə atıldı, mağaranın, yuvanın bir tərəfindən girib, o biri tərəfindən çıxdı. Sonra o baobaba qalxıb, orada gizləndi.

İt bacarıqla izi tapırdı, lakin baobaba yaxınlaşanda o özünü itirdi. Bilmədi ki, sonra nə etsin.

O ətrafı iylədi, iylədi, kənarlara baxdı, pişiyin harada olduğunu müəyyənləşdirə bilmədi.

Pişik isə bütün bunlara yuxarıdan göz qoyurdu. Itin onu tapa bilmədiyini görüb, qışqırdı:

-Hə, de görək, mən hardayam?

Öyrənməyini yarımçıq qoyan itin başına nə gəldi?

-İndi, it, sən iyə əsasən hər şeyi tapa bilirsən. Ağacda müəyyən şeyi tapmağı bacarmırsan. Bu, ona görədir ki, sən tələsdin! Sənə hər şeyi öyrədə bilməmişəm,- deyə pişik fikrini söylədi.

Beləliklə, bu vaxta kimi itlər öz əldə etdikləri müəyyən şey üçün ağaca dırmaşa bilmirlər.

NİYƏ GÜNƏŞ VƏ AY KÜSÜŞMÜŞDÜLƏR.

(Sudan nağılı)

Keçmiş zamanlarda Günəş Ay dost idilər. Onlar bir yerdə yaşayır və bütün əmlakları ümumi idi. Bir gün səhər tezdən Günəş tarlaya yola düşdü və Aya buyurdu ki, o, işdən gələnə kimi nahar hazırlasın. Lakin Ay heç nə eləmədi. Günəş tarladan qayıtdı və evdə yemək tapmadı.

- Əgər sən yemək bişirmək istəmirsənsə, heç olmasa get su gətir-deyə Günəş Aya tapşırıq verdi.

Ay susdu və yerindən qalxmadı. Onda Günəş səhəngi götürüb, Aya əmr etdi ki, ocağı qalasın. Özü isə su gətirməyə yollandı. Lakin tənbəl Ay od qalamaq da istəmədi.

Hər işi Günəş etməli oldu. O, qazanı su ilə doldurub, ocağa qoydu, ocağı üfürdü və sıyıq bişirməyə başladı. Sıyıq hazır olanda, Günəş qaynar qazanı ocaqdan götürdü və Ayı çağırdı ki, yeməyi onunla bölüşsün. Yalnız onda Ay yerindən qalxdı sıyığı yeməyə başladı.

Günəş möhkəm hirsləndi.Qəzəblə qazandan yapışıb qışqırdı:

- Ah, iylənmiş tənbəl, yeməyə həmişə hazırsan, amma bişirmək istəmirsən!

Bu sözləri deyərək, Günəş qazanı Ayın başına çırpdı, qazan çilik-çilik oldu, sıyıq isə Ayı başından ayağına kimi yandırdı. Ay qaçaraq güclə yaxasını qurtardı. O vaxtdan Günəş və Ay düşmənə çevrildilər.

Budur, nəyə görə Günəş səhər çıxanda Ay onun gözünə görünməməyə çalışır. O, gecəni gözləyir, yalnız bundan sonra öz yoluna davam edir.

GƏNC VƏ İYNƏ

(Sudan nağılı)

Biri vardı, biri yoxdu, bir gənc vardı. Gənc hər səhər sıx meşə ilə işə gedərdi.

- Sən silahsız bu meşə ilə necə yol gedirsən? – deyə atası dəfələrlə ondan soruşmuşdu. Birdən sənə kimsə hücum edə bilər? Axı sənin iynən də yoxdur.

Oğul isə atasına cavab olaraq gülümsəmişdi.

Bir gün o, işdən qayıdarkən quldurlar onu mühasirəyə aldılar və əsir götürdülər. Elə bu anda o, atasının sözlərini yada saldı və dilləndi.

- Əgər mənim heç olmasa bir iynəm olsaydı, siz, mənimlə bacara bilməzdiniz!

Quldurlar bunu eşidib, ürəkdən onunla əyləndilər və onların başçısı iynəni gəncə uzadıb, dedi:

- Budur, götür öz silahını!

Gənc iynəni götürdü, özünü elə göstərdi ki, ona baxır, birdən o qışqırdı:

- Bu ki, sınıb – onun gözü yoxdur.

- Ola bilməz, - deyə quldurların başçısı etiraz etdi və iynəyə baxmaq üçün başını irəli uzatdı. Gənc isə özünü itirmədən var gücü ilə iynəni başçının burnuna yeritdi. Quldur ağrıdan bağırdı. O, əlindən silahı atıb, burnundan yapışdı, çalışdı ki, iynəni oradan çıxartsın. Gənc vaxtı itirmədən tüfəngi götürdü və özlərini itirən quldurları güllələdi.

Evə qayıdan oğul atasına dedi:

- Sən haqlı idin. Quldur dəstəsi məni əhatəyə aldı və balaca iynə mənim həyatımı xilas etdi.

Beləliklə, demək lazımdır ki, adi bir şey mərd insanın əlində qorxulu silaha çevrilir.

NİYƏ QARA OLMAQ ÇƏHRAYI OLMAQDAN PİSDİR

(Sudan nağılı)

Bu ölkədə ilk qadın. Abinqdit idi. İlk kişi isə Qurundit sayılırdı.

Budur Abinqdit əkiz oğlan uşaqlarını dünyaya gətirdi. Onlardan biri gözəl idi, onun qara işıldayan və hamar dərisi vardı. İkincisi isə qırışmış, qırmızı – çəhrayı və eybəcər yaranmışdı.

Müəyyən vaxt keçdi və ata gəldi ki, öz oğlanlarını görsün və onların talelərini müəyyən etsin.

Qurundit arvadının yanına gəlməyə hazırlaşanda Abinqdit ana qara dərili oğlunu daha çox sevdi, çəhrayını isə görməyə gözü olmadı. Atasının sevimlisini əlindən alacağından qorxub, onun ürəyi az qala parçalanacaqdı.

Budur. Qurundit bura gələndə Abinqdit dedi ki, onun yalnız bir oğlu olub. O da çəhrayıdır. Ana qara dərilini daxmasında gizlətdi

Qurundit özünə çəhrayı oğlunu götürdü. O, oğluna örüş, ən yaxşı silah, əla geyimlər və bal verdi.

Müəyyən vaxt keçdi. Budur, qaradərili anasından soruşdu ki, atası hardadır və miras kimi nə əldə edəcək? Ananın ona verəcəyi nizədən başqa heç nə yox idi.

Qaradərili oğul başa düşdü ki, anası Abinqdit çox kasıbdır və o qərara aldı ki, özünü atasına təqdim etsin.

O istəyirdi ki, atasından oğul payını alsın, ata ona yaxşı silah, geyim və başqa lazım olan şeyləri bağışlasın. Ona görə qaradərili atasının evinə gəldi. Qurundit ikinci

oğlunu görəndə anladı ki, onu aldadıblar. Ona görə ata çox qəzəbləndi.

- Mən sənə heç nə verməyəcəyəm, - deyə o, qışqırdı.

- Əgər sən mənə heç nə verməsən, - deyə qaradərili oğul dilləndi. - Mən sənin evinin qabağında, yerdə ölənə kimi oturacağam.

O elə də etdi.

Hər səhər Qurundit evdən çıxanda astanada qaradərili oğlunu görürdü.AxşamQurundit evə qayıdanda, o yenə də qaradərili oğluna rast gəlirdi.

Bu hal günlərlə davam etdi. Onun qaradərili oğlu öz yerindən tərpənmirdi.

Nəhayət, özünü saxlaya bilməyib Qurundit qaradərili oğlu ondan əl çəksin deyə ona düyə bağışladı.

Məhz buna görə bu vaxta kimi qaraların mal-qara və nizədən başqa, heç nələri yoxdur. Lakin çəhrayı rəngdə olan adamların hər şeyi: tüfəngi, geyimləri, ərzağı və ümumiyyətlə hər şeyləri vardır.

GÖYÇƏ QARĞA VƏ ÇALAĞAN

(Sudan nağılı)

Çoxdan, lap çoxdan keçmiş zamanlarda insan şorusdu:

- Biz adamları ölümdən sonra nə gözləyir?

Çalağan bu vaxt onun başı üzərində uçurdu. O, insanın sözlərini eşidib, qərara aldı ki, ona təskinlik versin. Çalağan yerdən dəstəyi taxtadan olan qaşıq götürüb,onu Nil çayına atdı və insana dedi:

- Bax!

- Qaşıq əvvəl suyun dibinə getdi, lakin dəstəyi ağacdan olduğu üçün qaşıq batmadı.

- Öləndən sonra insanın başına bunlar gələcək. Əvvəl o, yox olacaq, sonra o yənə zühur edəcək və bir daha itməyəcək.

O ərazidə göyçə qarğa uçurdu. O çalağanın sözlərini eşidib qərara aldı ki, insanı pərt etsin, ovqatını korlasın. Göyçə qarğa saxsı qırığını götürüb, Nilə atdı və insana qışqırdı:

- Bax!

- Saxsı qırığı suya atılan kimi dərhal çayın dibinə getdi.

- Ölümündən sonra insan belə olacaq, - deyə göyçə qarğa dilləndi. O, yox olacaq və bir daha qayıtmayacaq.

O vaxtdan insan çalağanlara üstünlük verir, göyçə qarğanı isə görən gözü yoxdur. Bəlkə bu, gələcəkdən xəbər vermədir, ya da ki, sadəcə olaraq göyçə qarğalar dəstə ilə onların tartalarına uçub gəlirlər.

ŞİR VƏ GİC UZUNQULAQ

(Tunis nağılı)

Uzunqulaq örüşdə otlayırdı. Yaxınlıqda isə toyuq, xoruz eşələnirdi. Onların yanından keçən şir uzunqulağı görüb, onun üstünə atılmaq istədi. Elə bu anda xoruz banladı. Baxmayaraq ki, şir meşə hökmdarı idi və heç bir heyvan onun üçün qorxulu deyildi, əvvəllər xoruzun banlamağını eşitmədiyindən o, bu səsi eşidən kimi, dabanına tüpürərək qaçdı.

Gic uzunqulaq isə elə bildi ki, şir ondan qorxdu. Ona görə də o, meşə hökmdarının dalınca düşdü. Geriyə dönən şir onu tutaraq parçaladı.

Bunu bilin: öz qüvvənizi və düşmənin-kinini qiymətləndirmək əsas şərtdir.

XƏSİS QADIN

(Yoruba nağılı)

Biri vardı, biri yoxdu, bir qardaşın iki bacısı vardı. Bacılardan biri varlı, o biri isə kasıb idi. Kasıb elə kasıb idi ki, hətta o, uşağını sıx yarpaqlı budaqlarla belinə bağlayırdı.

O, yarpaq toplayıb satır və onunla dolanırdı.

Günlərin birində qadın adəti üzrə uşağını götürüb, pöhrənliyə getdi. O, uşağı yerə qoyub özü isə yarpaq yığmağa yollandı.

O, işlədiyi müddətdə meymun uşağı apardı və ağacın başında onunla oynamağa başladı.

Qadın yarpaq toplayıb qayıtdı, uşağı yerində görmə-

yib bərkdən qışqırdı. Meymun isə uşaqla əylənir, bir budaqdan başqasına hoppanırdı.

Birdən uşaq ağladı və ana onu ağacda gördü. Onda qadın mahnı oxumağa başladı. Meymun rəqs etməyə başladı, yavaş-yavaş ağacdan aşağı endi.

Meymun uşağı anasına qaytardı və soruşdu:

- Bu necə ola bilər? Sən gözəl müğənnisən, lakin hər gün bura gəlib yarpaq toplayırsan.

Qadın cavab verdi:

- Mən elə kasıbam ki, bununla özümü dolandırıram.

- Onda meymun dedi:

- Bu yolla get – qarşına sola gedən cığır çıxacaq O cığırla get. Bu vaxt çoxlu meyvələri olan bir ağac görəcəksən. Meyvələrin bəziləri qışqıracaqlar: "Məni götür, məni götür!" Sən onlara toxunma, ancaq susanları götür.

Qadın meymunun dediklərinə əməl etdi. Meyvələr həqiqətən deyirdilər: "Məni götür, məni götür!" Lakin o danışan meyvələrə toxunmadı, ancaq susanları götürdü.

Sonra o, qayıtdı, hər şeyi meymuna danışdı və ona meyvələri göstərdi.

Meymun buyurdu:

-Evə gələndə otağın qapısını bağla və meyvələri kəs.

Qadın evə gəldi, meymunun buyurduğu kimi etdi. Meyvələrin içində çoxlu pul və geyim vardı. Qadın əldə etdiyini üç yerə böldü. Bir hissəni qardaşına, o birini bacısına verdi, bir hissəni isə özünə saxladı.

Varlı bacıya, ona verilən hədiyyə azlıq elədi və o, dedi:

-Narahat olma, mən bilirəm, sən bunları haradan

əldə eləmisən. Mən də gedib hər şeyi özüm üçün gətirəcəyəm.

Ertəsi gün o, belə də etdi: O, uşağını özü ilə götürdü, pöhrənliyə gəldi, paltarını çıxartdı, budaqla uşağı belinə bağladı. Sonra balacanı yerə qoyub, pöhrənliyə gəzməyə və yarpaq toplamağa getdi. Bu vaxt meymun burada yox idi. O, geri qayıdanda uşağı görcək çox təəccübləndi və öz-özünə dedi: "Görən qadın belə naşükürdür! Yəni çox xəsisdir. Bunu öyrənmək lazımdır, o, niyə qayıdıb?"

Meymun uşağı apardı, qadın mahnı oxumağa başladı. Meymun yerə endi və uşağı qadına verib, soruşdu:

-Dünənki sənə azlıq elədi?

Dövlətli qadın boynuna almaq istəmədi ki, əvvəl gələn başqa qadın idi. O, cavab verdi:

-Hə, azdır! Mən yenə istəyirəm.

Onda meymun məsləhət gördü ki, əvvəlki qadın getdiyi cığırla getsin. Ona həmçinin dedi ki, ancaq susan meyvələri dərsin.

Qadın meyvə ağacına gəlib çatanda fikirləşdi: "Bu meymun deyəsən məni axmaq hesab edir. Mən o qədər də gic deyiləm".

Və o, "Götür məni, gətür məni!" deyən meyvələri götürdü. Sonra o, geri dönüb onları meymuna göstərdi. Meymun buyurdu ki, evdə onları kəssin.

Qadına necə deyilmişdi, elə də etdi. Lakin o, meyvələri kəsəndə onlardan qızıl və geyim yox, oradan vəhşi heyvanlar və ilanlar çıxdı. Onlar qadını dişləməyə və sancmağa başladılar.

Bax, buna görə də xəsislik etmək olmaz. Sənə kim nə veribsə, buna görə ona minnətdar ol.

TƏRCÜMƏÇİ NATİQ SƏFİYEV HAQQINDA QISA MƏLUMAT

Natiq Yusif oğlu Səfiyev 1939-cu il mart ayınm 21-də Bakı şəhərində həkim ailəsində anadan olmuşdur.

1957-ci ildə Quba rayonu Alpan kənd orta məktəbini qurtarmışdır.

1962-ci ildə Azərbaycan Pedaqoji Universitetini, 1974-cü ildə Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunu, indiki Slavyan Universitetini müvəffəqiyyətlə bitirmişdir.

1965-ci ildən 2008-ci ilin sonlarına kimi Abşeron rayonu, Xırdalan qəsəbə (indi şəhər) orta məktəbində müəllim işləmişdir.

1963-cü ildən respublikanın dövri mətbuatında jurnalistlik fəaliyyətinə başlamışdır. O, "Qızıl qələm" media mükafatına layiq görülmüşdür.

Natiq Səfiyev məktəbdə işlədiyi müddətdə 6 ümumittifaq və 14 respublika pedaqoji mühazirələrində və elmi-praktik konfranslarında məruzələr etmiş, IV və V ümumittifaq mühazirələrindən II və I dərəcəli mükafatlarla vətənə qayıtmışdır. 1981-ci ildə müəllim mühazirələri müsabiqəsində II yeri tutmuş və SSRİ Pedaqoji Elmlər Akademiyasının fəxri diplomuna layiq görülmüşdür.

Natiq Səfiyevin indiyədək iki metodiki, iki tərcümə ("Qəribə tütək", "Köhnə dəyirman"), üç memuar ("Məni yaşadan xatirələr", "Yadda qalan günlərim", "Ömür salnaməsi"), didaktik hekayələr toplusu ("Babam mənim"), fotoalbom

("İşıqlı dünyam", "Nicat" (hekayələr toplusu), Sengiyn Erdene (Monqolustan) "Ürəkdə daş", "Dağıstan xalqlarının nağılları" tərcümə kitabları çapdan çıxmışdır.

Onun haqqında yüzdən çox məqalə, oçerk, üç kitab yazılmışdır (Akif Şahverdiyev "Ömrə sığmayan həyat", Güntəkin İlyasova "Natiq Səfiyev - "Biblioqrafik göstərici", Hikmət Məlikzadə "40 il mətbuatda").

O, məktəbdə çalışdığı müddətdə 14 yaradıcı diplom, 46 fəxri fərman, 5 təşəkkür məktubu və 5 nişan almışdır. 1989-cu ildə ona "Əmək veteranı" medalı verilmişdir.

Natiq Səfiyev 1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2006-cı ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Onun 3 qızı və 6 nəvəsi var.

Hal-hazırda təqaüddədir.

KİTABIN İÇİNDƏKİLƏR:

Nyamanın quyusu (Aşanti nağılı) 3
İkiyüzlü Nqi (Beti-bulu nağılı).....6
Niyə donuzların buynuzları yoxdur (Baule nağılı) 9
İnsanlar necə od əldə etdilər (Çaqqa nağılı) 12
Siçanlar və pişiklər (Dabida nağılı) 15
Meymun niyə ağacda yaşayır (Eve nağılı) 16
Saxaranın yaranması (Əlcəzair nağılı).....18
Bacarıqlı oğrular (Əlcəzair nağılı).....20
Səhrada yaşayan göyərçinlər (Əlcəzair nağılı) 22
Kaftar necə bazara getmişdi (Fulbe nağılı) 24
Dovşan kaftarı necə aldatdı (Xausa nağılı) 25
Çar Qvari və cadugər (Xausa nağılı).....26
Kaftarların dal ayaqları niyə qısadır (Qottentot nağılı) 28
Bəbir və çaqqal (Qottentot nağılı) 29
Oğlan Bikeri və kaftar (Qusni nağılı) 31
Ağac və torpaq (Linqala nağılı).....33
Şir, bəbir və kaftar (Makonde nağılı) 35
Donuz və çalağan (Makonde nağılı).....37
Niyə ilanlar qurbağa yeyirlər (Malaqasi nağılı) 38
Niyə əntər gözlərini bərəldir (Mancak nağılı) 40
Ayın əmələ gəlməsi (Manden nağılı) 42
Kasıb dovşanın evlənməsi (Manden nağılı).....44
Uzunqulaqların yaranması haqqında (Mankan nağılı).....47
Xurma (Mərakeş nağılı) 49
Dovşan və Tısbağa (Mərakeş nağılı) 50
Çaqqal və Xoruz (Mərakeş nağılı) 51
Xallar (Misir nağılı) 52
Timsah və qarabatdaq (Misir nağılı) 53
Sehrli üzük (Misir nağılı) 54
Balıqçı və şahzadə (Misir nağılı) 57
İt, Canavar və Tülkü (Misir nağılı) 60

Heyvanlar insanlara niyə etibar etmirlər (Moba nağılı) 61
Meymun, piton və dovşan (Soto nağılı) 65
İt və pişik (Suaxili nağılı) 66
Niyə Günəş və Ay küsüşmüşdülər (Sudan nağılı) 68
Gənc və iynə (Sudan nağılı) 69
Niyə qara olmaq çəhrayı olmaqdan pisdir
(Sudan nağılı) 71
Göyçə qarğa və çalağan (Sudan nağılı) 73
Şir və gic uzunqulaq (Tunis nağılı).....74
Xəsis qadın (Yoruba nağılı).....75
Tərcüməçi Natiq Səfiyev haqqında qısa məlumat.....78

Qeydlər üçün:

Dizayner: Fariz Məhərrəmov
Operator: Afaq Vəliyeva

~~~~~~~~~~~~~~~~~~~~~~~~
Çapa imzalanmışdır: 06.03.2013.
Formatı: 60x84 1/16. Həcmi: 3,5 ç.v.
Sifariş 17. Tiraj 200.
«Təknur» MMC-nin mətbəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.
~~~~~~
Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.
~~~~~~
Mətbəənin direktoru: Ələkbər Məmmədov
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30